# illik hesabat

# 2005

Azərbaycan Respublikası
Dövlət Neft Fondu

Azərbaycan Respublikası Dövlət Neft Fondu

# Mündəricat


| | |
|---|---|
| GİRİŞ | 3 |
| NEFT FONDUNUN 2005-ci İLDƏ MALİYYƏ FƏALİYYƏTİ | 7 |
| 2005-ci ildə Neft Fondunun vəsaitinin hərəkəti | 8 |
| 2005-ci ildə Neft Fondunun neft sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri | 9 |
| 2005-ci ildə Dövlət Neft Fondunun vəsaitinin idarə edilməsi ilə bağlı gəlirləri | 16 |
| 2005-ci ildə Dövlət Neft Fondunun xərcləri | 25 |
| 2005-ci ildə Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri | 31 |
| NEFT FONDUNUN 2005-ci İL BÜDCƏSİNİN İCRASI | 33 |
| NEFT FONDUNUN İDARƏETMƏ SİSTEMİ | 39 |
| NEFT FONDUNUN İNSTİTUSİONAL QURUCULUĞUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ | 41 |
| NEFT FONDUNUN BEYNƏLXALQ ƏLAQƏLƏRİ | 43 |
| İNSAN RESURSLARININ İNKİŞAFI | 47 |
| HESABAT SİSTEMİ | 49 |
| DÖVLƏT NEFT FONDUNUN 2005-ci İLDƏ MALİYYƏ FƏALİYYƏTİ HAQQINDA HESABATINA DAİR AUDİTOR ŞİRKƏTİNİN RƏYİ | 51 |
| Müstəqil Auditor Rəyi | 52 |
| Maliyyə Hesabatları | 53 |
| Maliyyə Hesabatları ilə bağlı qeydlər | 57 |








# Giriş

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında 2005-ci ildə həyata keçirilmiş iqtisadi kurs böyük nailiyyətlərlə əlamətdar olmuşdur. Ötən il ərzində tətbiqini tapmış iqtisadi və sosial yönümlü proqramların nəticəsi olaraq ölkədə yerli istehsalın canlanmasına şərait yaranmış, iqtisadiyyatın müxtəlif sahələrində yüz minlərlə yeni iş yerləri açılmış, xalqımızın maddi güzəranının və rifah halının yüksəldilməsinə nail olunmuşdur.

2005-ci ildə iqtisadiyyatın bütün sahələrində yüksək göstəricilər əldə edilmişdir. İqtisadiyyatin əsas makroiqtisadi göstəricilərindən biri olan Ümumi Daxili Məhsulun istehsalına görə Azərbaycan dünyada lider ölkəyə çevrilmişdir. Təsadüfi deyil ki, beynəlxalq maliyyə qurumlarının çoxsaylı rəylərində Azərbaycan Respublikası keçid iqtisadiyyatlı ölkələr sırasında ən dinamik inkişaf edən ölkə kimi xarakterizə olunub, BMT-nin Ticarət və İnkişaf Konfransının 2005-ci ildə dərc etdiyi hesabata görə isə Azərbaycan sərmayə cəlb ediciliyi baxımından dünyada birinci yeri tutur. Hesabat ilində Ümumi Daxili Məhsulun həcmi 11 875,6 milyon AZN təşkil edərək, əvvəlki ilə nisbətən 26,4% artmışdır. Əhalinin pul gəlirləri də əvvəlki ilə nisbətən təqribən 27% artaraq 7 792,3 milyon manat təşkil etmişdir.

Makroiqtisadi şəraitin inkişaf dinamikası baxımından da ötən ilin bir çox fərqli əlamətləri mövcud idi. Əgər bundan əvvəlki illərdə maliyyə resurslarının azlığı səbəbindən Azərbaycan məhdud dövlət investisiyaları və aşağı inflyasiya şəraitində inkişaf etmişdirsə, Milli Neft Strategiyasının uğurla reallaşması sayəsində dövlətin maliyyə imkanlarının genişlənməsi ilə əlaqədar ümummilli, sosial-iqtisadi problemlərin, habelə texniki və sosial infrastrukturunun bərpası və yenidən qurulması məsələlərinin həlli üçün geniş imkanlar açılmış və ölkə iqtisadiyyatı dinamik makroiqtisadi mühitlə səciyyələnən yeni inkişaf dövrünə qədəm qoymuşdur. Ölkədə çoxsaylı investisiya və sosial yönümlü proqramların həyata keçirilməsi şəraitində dövlətin xərclərinin artması öz növbəsində pul kütləsinin genişlənməsinə və bununla əlaqədar müəyyən makroiqtisadi təzyiqlərin yaranmasına, o cümlədən inflyasiyanın yüksəlməsinə və yerli valyutanın xarici valyutalara qarşı kəskin bahalaşmasına şərait yaratmışdır. Yeni makroiqtisadi mühitin səmərəli idarə olunması məsələləri hökumətin qarşısında adekvat vəzifələr qoymuşdur. 2005-ci ildə qeyd olunan vəzifələrin həlli istiqamətində hökumət tərəfindən uğurlu addımlar atılmış, artan pul kütləsinin idarə olunması və inflyasiyanın tənzimlənməsi ilə əlaqədar maliyyə bazarlarının inkişaf etdirilməsi daha da sürətləndirilmişdir. Ötən ildən başlayaraq dövlət istiqrazlarının dövriyyəyə buraxılması işi təkmilləşdirilərək, onların həcmi və keyfiyyəti artırılmışdır, bu isə öz növbəsində ölkənin bank və sığorta təşkilatlarının fəaliyyətində də canlanmaya səbəb olmuşdur.

Ölkənin iqtisadi inkişafının sürətləndirilməsində, mühüm sosial-iqtisadi problemlərin həllində, habelə strateji əhəmiyyətli dövlət proqramları və layihələrin maliyyələşdirilməsində Dövlət Neft Fondunun rolu ildən-ilə daha da artır, eyni zamanda durmadan artan neft gəlirləri şəraitində xarici valyuta axınının sterilizasiyası ilə bağlı Neft Fondunun rolunun artması da aydın şəkildə hiss olunur. 2005-ci ildə ölkə iqtisadiyyatına daxili mənbələr hesabına investisiyaların həyata keçirilməsində Fond mühüm rola malik olmuşdur. Belə ki, hesabat ilində Azərbaycan Respublikası Prezidentinin Fərmanlarına uyğun olaraq və Fondun təsdiq edilmiş büdcəsi çərçivəsində Dövlət Neft Fondundan qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlərə 201,9 milyard AZM (40,4 milyon AZN), Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri (BTC) layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə 205,0 milyon manat (41,0 milyon AZN) vəsait istifadə olunmuşdur. Bununla yanaşı, Fondun büdcəsinin icrasına uyğun olaraq 750,0 milyard AZM (150,0 milyon AZN) dövlət büdcəsinə transfer edilmişdir. Beləliklə hesabat ilində ölkənin yuxarıda qeyd olunan məqsədlər üçün Neft Fondundan ayrılmış vəsaitlərin ümumi miqdarı 1 156,9 milyard AZM (231,4 milyon AZN) təşkil etmişdir. 2005-ci ildə eyni zamanda mənfəət vergisi və digər vergilər şəklində dövlət büdcəsinə 17,4 milyard AZM (3,5 milyon AZN) məbləğində vəsait köçürülmüşdür.

2005-ci il eyni zamanda "Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbusu" (MHŞT) çərçivəsində Azərbaycanda ilk hesabatların dərc edildiyi il kimi də yadda qalacaqdır. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 noyabr 2003-cü il tarixli Sərəncamı ilə yaradılmış və Dövlət Neft Fondunun İcraçı Direktorunun sədrlik etdiyi MHŞT üzrə Komissiya tərəfindən ötən ildə Azərbaycan Respublikası hökumətinin mədən hasilatı sənayesində əldə etdiyi məcmu daxilolmalar barədə hesabatlar və beynəlxalq auditor şirkətlərinin bu hesabatlara dair verdikləri rəylər açıqlanmışdır. 2003-cü ili və 2004-cü ilin birinci rübünü, daha sonra bütöv 2004-cü ili əhatə edən və ictimaiyyət üçün açıqlanmış bu hesabatlar Şəffaflıq Təşəbbüsü çərçivəsində dünyada ilk dəfə olaraq hökumətin dərc etdirdiyi mineral ehtiyatların hasilatı üzrə sənaye sahələrindən məcmu gəlirlər barədə hesabatlar olmaqla bərabər, Azərbaycanın Təşəbbüslə bağlı üzərinə götürdüyü öhdəliklərin tam yerinə yetirildiyini təsdiq etmişdir. Ölkəmizin bu istiqamətdəki nailiyyətləri bütün dünyanın diqqətini cəlb edərək, artıq digər ölkələr üçün də nümunəyə çevrilib.

2005-ci ildə dünya iqtisadiyyatına təsir etmiş başlıca uzunmüddətli iqtisadi hadisəyə xam neftin qiymətlərinin yüksək səviyyədə qalmasını aid etmək olardı. Bu enerji daşıyıcısının yüksək qiyməti bir tərəfdən dünya iqtisadiyyatında baş verən qlobal artım tempinə uyğun olaraq karbohidrogen ehtiyatlarına tələbatın genişlənməsi ilə, digər tərəfdən bir sıra iri neft istehlakçı ölkələrində strateji neft ehtiyatlarının əhəmiyyətli səviyyədə azalması ilə izah edilir. Belə ki, Asiya dövlətlərinin, xüsusilə də Çinin yüksək templə inkişaf etməsi, eyni zamanda Çin, Hindistan, Cənubi Koreya və Tayvan dövlətlərinin maye yanacağı üzrə dövlət fövqəladə ehtiyatlarının yaradılması ilə bağlı təşəbbüsləri bu regionda enerji istehlakının artmasına və nəticədə neftin dünya üzrə qiymətlərinin yüksəlməsinə təkan verdi.

Enerji daşıyıcılarına qiymətlərin artması, habelə dünyanın qabaqcıl iqtisadiyyatını təşkil edən ABŞ-da il ərzində cərəyan etmiş siyasi, iqtisadi, habelə təbiət hadisələri ilə bağlı proseslər beynəlxalq maliyyə bazarlarının konyunkturuna birbaşa təsir göstərmişdir. İraq və Əfqanıstanda davam etmiş və sonu görünməyən hərbi və sülhyaratma əməliyyatları, habelə Meksika körfəzində baş vermiş dağıdıcı qasırğaların nəticələrinin aradan qaldırılması ilə əlaqədar ABŞ-ın müdafiə və digər xərclərinin artması şəraitində bu ölkənin büdcə kəsirinin daha da genişlənməsi ölkədəki inflyasiya təhlükəsinin güclənməsinə səbəb olmuş və buradakı iqtisadi vəziyyət ümumdünya iqtisadiyyatında, xüsusilə də maliyyə

bazarlarında gərginliyin artmasına şərait yaratmışdır. Enerji daşıyıcılarının qiymətlərində davamlı artımla əlaqədar Avropa zonasının iqtisadiyyatında, eləcə də bu ölkələrin maliyyə bazarlarında da gərginlik yaşanırdı.

İnflyasiya təhlükəsinə qarşı aparılan siyasət çərçivəsində ABŞ-ın Federal Rezerv Bankının il boyunca bir neçə dəfə faiz dərəcəsinin artırılması şəraitində gəlirliliyi fiksə edilmiş qiymətli kağızlara vəsaitlərin yerləşdirilməsi və bu istiqamətdə gəlirliliyin artırılması baxımından 2005-ci ili əlverişli olmayan il hesab etmək olardı. ABŞ və Avropa Mərkəzi Banklarının faiz dərəcələrinin artmasının əks-təsiri nəticəsində qiymətli kağızların ABŞ dolları və AVRO ifadəsi ilə qiymətlərinin enməsi, digər tərəfdən Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş Dövlət Neft Fondunun 2005-ci il üçün İnvestisiya Siyasətinə uyğun olaraq Fondun vəsaitinin diversifikasiya edilərək, üç əsas valyutada (ABŞ dolları, AVRO və İngilis funt sterlinqi) yerləşdirilməsi və il ərzində AVRO və İngilis funt sterlinqi valyutasının ABŞ dollarına qarşı məzənnələrinin davamlı olaraq aşağı düşməsi ilə əlaqədar Dövlət Neft Fondu olduqca konservativ mövqe tutmuş, ABŞ dolları ifadəsində Fondun vəsaitlərinin idarə edilməsi ilə bağlı gəlirliliyi isə aşağı səviyyədə gerçəkləşmişdir.






# Neft Fondunun 2005-ci ildə Maliyyə Fəaliyyəti

## 2005-ci ildə Neft Fondunun vəsaitinin hərəkəti

2005-ci ilin 1 yanvar tarixinə Dövlət Neft Fondunda toplanmış vəsaitin həcmi **4 726 257,4** milyon manat (AZM) (**945 251,5** min yeni Azərbaycan manatı (AZN) və ya **964,0** milyon ABŞ dolları təşkil etmişdir.

2005-ci il ərzində neft sazişlərinin həyata keçirilməsi və Neft Fondunun valyuta vəsaitlərinin idarə edilməsi ilə bağlı Fondun gəlirlərinin ümumi həcmi **3 300 323,9** milyon AZM (660 064,8 min AZN) təşkil etmişdir.

Hesabat ili ərzində Neft Fondunun xərclərinin ümumi məbləği **1 624 296,9** milyon AZM (324 859,3 min AZN) olmuşdur.

2005-ci ilin 31 dekabr tarixinə Fondun vəsaitinin ümumi miqdarı **6 402 284,4 *** milyon AZM (1 280 457,0 min AZN) və ya ABŞ dolları ekvivalenti ilə təqribən **1 394,3** milyon təşkil etmişdir. Hesabat ilində Neft Fondunun vəsaitinin hərəkəti *Cədvəl 1-də* göstərilir.

Hesabat ilində Neft Fondunun əsas mədaxil mənbəyini Azərbaycan Respublikasının xarici sərmayəçilərlə bağladığı neft və qazın kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü barədə sazişlərin həyata keçirilməsindən əldə edilən gəlirlər təşkil etmişdir.

*Cədvəl 1*

### 2005-ci ildə Neft Fondunun vəsaitinin hərəkəti cədvəli

| Gəlirlər | Məbləğ | | |
|---|---|---|---|
| | mln. AZM | min AZN | mln. $ ABŞ |
| 01.01.2005-ci il tarixinə **TOPLANMIŞ VƏSAİTİN HƏCMİ** | **4 726 257,4** | **945 251,5** | **964,0** |
| **ÜMUMİ GƏLİRLƏR:** | **3 300 323,9** | **660 064,8** | **704,6** |
| ***o cümlədən:*** | | | |
| Neft sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirlər | 2 844 273,4 | 568 854,7 | – |
| Fondun vəsaitlərinin idarə edilməsindən əldə edilən gəlirlər | 139 576,3 | 27 915,3 | |
| Maliyyə Nazirliyindən daxilolma | 316 474,2 | 63 294,8 | |
| **ÜMUMİ XƏRCLƏR:** | **1 624 296,9** | **324 859,3** | **274,3** |
| ***o cümlədən:*** | | | |
| Valyuta aktivlərinin yenidən qiymətləndirilməsi ilə bağlı xərclər | 442 059,2 | 88 411,8 | |
| 31.12.2005-ci il tarixinə **Fondun vəsait qalığının məbləği** | **6 402 284,4** | **1 280 457,0** | **1 394,3** |

* "Ernst and Yanq" şirkətinin audit hesabatında göstərilmiş hesabat ilinin sonuna aktivlərin cəmi həcmi ilə fərqin səbəbi auditorlar tərəfindən ilin sonuna aktivlərin ümumi miqdarının müəyyən edilməsi zamanı Neft Fondunda aparılan hesablamalara nisbətən beynəlxalq standartlara uyğun fərqli yanaşmaları olubdur. Belə ki, auditorlar tərəfindən aktivlərin ümumi miqdarı hesablanarkən Fondun aktivlərinə bir tərəfdən əsas vəsaitlər və qeyri-maddi aktivlər (11,0 milyard manat), habelə 2005-ci il üzrə ödənilməli, lakin faktiki olaraq 2006-cı ildə köçürülmüş tranzit haqları (6,4 milyard manat), habelə avans ödənişləri və cari aktivlər (3,4 milyard manat) əlavə edilmişdir.





## 2005-ci ildə Neft Fondunun neft sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri

Hesabat ilində neft sazişlərinin həyata keçirilməsindən Dövlət Neft Fondunun gəlirlərinin formalaşma mənbələrini Azərbaycan Respublikasının payına düşən xam neftin (mənfəət neftinin) satışından əldə edilmiş gəlirlər, bonus ödənişləri, akrhesabı ödənişlər, neftin Azərbaycan ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər (tranzit haqları) və sərmayəçilər tərəfindən Azərbaycan tərəfinə verilən aktivlərdən daxilolmalar təşkil etmişdir. Neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirlərin strukturu *Qrafik 1-də* göstərilir.

*Qrafik 1*

### 2005-ci ildə neft sazişlərinin həyata keçirilməsi ilə bağlı Neft Fondunun gəlirləri




*Qrafik 1*-dən göründüyü kimi, 2005-ci ildə neft sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirlərin tərkibində mənfəət neftinin satışından əldə edilən gəlirlərin xüsusi çəkisi 95,4%, bonus ödənişləri 0,2%, akrhesabı ödənişlər 1,4%, neftin Azərbaycan ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər (tranzit haqları) 2,8% və sərmayəçilər tərəfindən verilmiş aktivlərin satışından əldə edilmiş gəlirlər 0,3% təşkil etmişdir.

**Mənfəət neftinin satışından əldə edilən gəlirlər.**

2005-ci ildə neft sazişlərinin həyata keçirilməsi ilə bağlı Neft Fondunun əsas mədaxil mənbəyini və Fondun daxilolmalarının böyük hissəsini xarici neft şirkətləri ilə bağlanmış sazişlər çərçivəsində Azərbaycan Respublikasının payına düşən mənfəət neftinin satışından əldə edilən gəlirlər təşkil etmişdir. İl ərzində Dövlət Neft Fondunun payına düşən mənfəət neftinin satışından **2 713 094,8** milyon manat (542 619,0 min AZN) və ya **579,9** milyon ABŞ dolları məbləğində gəlirlər daxil olmuşdur. Hesabat ilində bu mənbədən gəlirlər Fondun ümumi gəlirlərinin 82,2%-ni təşkil etmişdir.

2005-ci ildə eyni zamanda Azərbaycan Respublikasının payına düşən **1 196,3 min barrel** miqdarında mənfəət neftindən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac

Boru Kəmərinin doldurulması üçün istifadə edilmişdir. Belə ki, 2005-ci ilin 25 may tarixində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə Əsas İxrac Boru Kəmərinin Azərbaycan hissəsi istismara veriləndən sonra bu kəmərin xam neftlə doldurulması prosesinə başlanılmış və bununla əlaqədar hesabat ili ərzində Azərbaycan Respublikasının payına düşən mənfəət neftinin yuxarıda qeyd olunan həcmi kəmərin doldurulmasına yönəldilmişdir. Kəmərin istismara verilməsindən sonra Azərbaycan Respublikasının qarşısında duran öhdəliklərin yerinə yetirilməsi, o cümlədən boru kəmərinin xam neftlə doldurulması, habelə xarici maliyyə qurumlarından cəlb edilmiş kredit vəsaiti üzrə əkszəmanətin verilməsi və bunun müqabilində Azərbaycan Respublikasının payına düşən mənfəət neftinin müvafiq həcmi hesabına xam neftin təqdim edilməsi proseduru "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli Fərmanı ilə tənzimlənir.

2005-ci ildə xam neftin qiyməti bir barrel üçün 50 - 60 ABŞ dolları arasında dəyişmişdir. İl ərzində neftin qiymətinin yüksək olması ilə əlaqədar Fondun bu mənbədən gəlirləri gözləniləndən daha çox olmuşdur.

Neftin qiymətlərinin artmasını şərtləndirən səbəblərə dair beynəlxalq ekspertlərin verdiyi qiymətləndirmənin təhlili onu göstərir ki, bu enerji daşıyıcısının qiymətinin yüksək olmasına bir neçə amil təsir edir. Asiya dövlətlərində, xüsusilə də Çində inkişaf tempinin yüksək olması və bu səbəbdən bu regionda enerji daşıyıcılarına tələbatın, habelə enerji istehlakının artması neftin dünya üzrə qiymətlərinin yüksəlməsinə təkan verən amillərdən biri kimi qiymətləndirilir. Eyni zamanda Çin, Hindistan, Cənubi Koreya və Tayvanın maye yanacağı üzrə dövlət fövqəladə ehtiyatlarının yaradılması ilə bağlı təşəbbüsləri neftin qiymətlərinin artım tempinə əhəmiyyətli təkan verdi. Digər səbəb onunla bağlıdır ki, neft ixrac edən dövlətlərin sayı da ilbəil azalır. Belə ki, 10 il əvvəl nefti ixrac edən Çin hal-hazırda bu enerji daşıyıcısının idxalına görə dünyada ikinci yeri tutmaqdadır. Bundan başqa, Norveç dövlətində neft hasilatının pik dövrü yaşanır, OPEK-in üzvü olan İndoneziya isə 2005-ci ildə ixrac edən dövlətdən idxalçıya çevrilmişdir.

İl ərzində Brent markalı neftin qiymətlərində qısamüddətli aşağı düşmə meyllərinin yaranmasına baxmayaraq, neftin orta illik qiymətləri yuxarı səviyyədə qalmışdır. İlin əvvəlində bir barrel neftin orta illik qiyməti 45,87 ABŞ dolları səviyyəsində olmuşdursa, iyunda bu qiymət 54,85 dollara qalxmış, dekabrda isə 58,87 ABŞ dolları təşkil etmişdir. 2005-ci il üzrə Brent markalı neftin orta illik qiyməti təqribən 54,1 ABŞ dolları təşkil etmişdir.

2005-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) tərəfindən satılmış mənfəət nefti partiyalarının orta illik qiyməti 1 barrel üçün təqribən 51,6 ABŞ dolları təşkil etmişdir. Neftin qiymətinin yüksək olmasının, habelə hasilatın artmasının müsbət nəticəsi olaraq 2005-ci ildə əvvəlki illərlə müqayisədə Neft Fonduna mənfəət neftinin satışından daha çox vəsait daxil olmuşdur.





*Qrafik 2*

## 2005-ci ildə dünya bazarlarında Brent neftinin qiymətinin və ARDNŞ tərəfindən satılmış mənfəət nefti partiyalarının satış qiymətlərinin müqayisəli dinamikası




*Qrafik 3*

## 2005-ci ildə ARDNF-in mənfəət neftinin satışından aylar üzrə daxilolmaları

*(ABŞ dolları və barrel ilə)*



2000 - 2005-ci illər ərzində mənfəət neftinin satışından Neft Fondunun gəlirlərinin dinamikası Fondun bu mənbədən gəlirlərinin ilbəil yüksələn xətt üzrə artdığını bir daha təsdiq edir. Bu mənbə üzrə daxilolmaların həcminin illər üzrə dinamikası *Qrafik 4-də* verilir.

*Qrafik 4*

2000 - 2005-ci illər ərzində mənfəət neftinin satışından daxilolmalar




Mənfəət neftinin satışı ilə bağlı məbləğlər Neft Fonduna köçürülərkən neftin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri ARDNŞ tərəfindən tutulmuşdur.

**Bonus ödənişlərindən əldə edilən gəlirlər.**

Hesabat ilində Dövlət Neft Fondunun digər daxilolmasını neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən ödənilmiş bonuslar (mükafatlar) təşkil edib. 2005-ci ildə Neft Fonduna daxil olmuş bonus ödənişlərinin ümumi məbləği **4 592,1** milyon AZM (918,4 AZN) və yaxud **1,0** milyon ABŞ dolları təşkil etmişdir. Bonus ödənişləri ilə bağlı daxilolmalar Neft Fondunun ümumi gəlirlərinin 0,1%-ni təşkil etmişdir. Bonus ödənişlərinin daxilolma mənbəyi *Cədvəl 2-də* göstərilir.

*Cədvəl 2*

2005-ci ildə Neft Fonduna bonus ödənişləri ilə bağlı daxilolmalar

| Vəsaiti köçürən qurumun adı | Tarix | Məbləğ | | |
|---|---|---|---|---|
| | | mln. AZM | min AZN | mln. $ ABŞ |
| AZEN Oil | 29.09.05 | 4 592,9 | 918,4 | 1,0 |





*Cədvəl 2-də* qeyd olunan bonus ödənişləri Dövlət Neft Fonduna bir şirkət – AZEN Oil şirkəti tərəfindən ödənilmişdir.

**Akrhesabı ödənişlər ilə bağlı daxilolmalar.**

2005-ci ildə Neft Fondunun növbəti daxilolma mənbəyini karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar xarici sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün ödənilən akrhesabı ödənişlər təşkil etmişdir. 2005-ci ildə Neft Fonduna daxil olmuş akrhesabı ödənişlərin ümumi məbləği **40 756,0** milyon manat (8 151,2 min AZN) və ya təqribən **8,8** milyon ABŞ dolları olmuşdur. Bu mənbədən Neft Fondunun gəlirləri Fondun ümumi gəlirlərinin 1,2%-ni təşkil etmişdir. Hesabat ilində Neft Fonduna akrhesabı ödənişlərdən daxilolmalar *Cədvəl 3-də* göstərildiyi kimi olmuşdur.

*Cədvəl 3*

2005-ci ildə Neft Fonduna akrhesabı ödənişlər ilə bağlı daxilolmalar

| Vəsaiti köçürən qurumun adı | Yatağın adı | Tarix | Məbləğ | | |
|---|---|---|---|---|---|
| | | | mln. AZM | min AZN | min $ ABŞ |
| Ekson-Mobil şirkəti | Zəfər-Məşəl | 05/2005 | 6 170,0 | 1 234,0 | 1 285,9 |
| Ekson-Mobil şirkəti | Naxçıvan | 11/2005 | 2 573,5 | 514,7 | 560,0 |
| LUKoyl şirkəti | D-222 | 12/2005 | 27 879,7 | 5 575,9 | 6 074,0 |
| BP exploration | İnam | 12/2005 | 4 132,8 | 826,6 | 900,0 |
| Cəmi | | | 40 756,0 | 8 151,2 | 8 819,9 |

Akrhesabı ödənişlərin böyük hissəsi (69%) LUKoyl şirkəti tərəfindən, 25% Ekson-Mobil şirkəti, 10% isə BP Eksploreyşn şirkəti tərəfindən ödənilmişdir. Akrhesabı ödənişlərin faiz tərkibi *Qrafik 5-də* verilir.

*Qrafik 5*

2005-ci ildə ARDNF-in akrhesabı ödənişlər üzrə daxilolmaları



**Tranzit haqları ilə bağlı ödənişlər.**

2005-ci ildə Neft Fondunun neft sazişlərinin həyata keçirilməsi ilə bağlı daha bir mühüm gəlir mənbəyini neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər (tranzit haqqı) təşkil etmişdir. Bu mənbədən Neft Fondunun gəlirlərinin ümumi məbləği 78 217,6 milyon manat (15 643,5 min AZN) və yaxud təqribən 16,5 milyon ABŞ dolları təşkil etmişdir. Neft Fondunun ümumi gəlirlərinin tərkibində tranzit haqları ilə bağlı gəlirlərin xüsusi çəkisi 2,4%-ə bərabər olmuşdur.

2005-ci ilin ayları üzrə Dövlət Neft Fonduna tranzit haqlarından daxilolmaların dinamikası *Qrafik 6-da* verilir.

*Qrafik 6*

2005-ci ildə Dövlət Neft Fonduna tranzit haqları üzrə daxilolmalar




* və **: Qrafikdəki 1 257,6 min ABŞ dolları 2004-cü ilin noyabr ayı üzrə, 1 291,1 min ABŞ dolları isə 2004-cü ilin dekabr ayı üzrə ödənilmiş, lakin faktiki olaraq Neft Fonduna 2005-ci ilin yanvar ayında daxil olmuş vəsaitlərdir.

**Neft-qaz sazişləri çərçivəsində sərmayəçilər tərəfindən verilən aktivlərdən alınan gəlirlər.**

Dövlət Neft Fondu haqqında qanunvericilik aktlarına uyğun olaraq, Fondun digər gəlir mənbəyini neft-qaz sazişləri çərçivəsində Azərbaycan Respublikasi Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən verilən aktivlərdən əldə edilən gəlirlər təşkil edir.





Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu və Hasilatın Pay Bölgüsü Sazişləri (HPBS) çərçivəsində fəaliyyət göstərən xarici neft şirkətləri arasında bağlanmış üçtərəfli müqavilələrə uyğun olaraq bu sazişlər çərçivəsində istifadə olunmuş aktivləri Dövlət Neft Fonduna verməlidirlər. "Azəri-Cıraq-Günəşli" yatağı üzrə HPBS çərçivəsində Azərbaycan tərəfinə aktivlərin təqdim edilməsi prosedurları Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti arasında 24 dekabr 2002-ci il tarixində bağlanılmış üçtərəfli müqavilə ilə tənzimlənir. Müqavilədə eyni zamanda aktivlərin təqdim edilməsi mexanizmləri və müvafiq rəsmiləşdirmə qaydaları təsbit edilmişdir.

Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron dəniz blokunun kəşfiyyatı, işlənməsi və HPBS-in 14.1. maddəsi çərçivəsində aktivlərin Azərbaycan tərəfindən verilməsini tənzimləmək məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu və "Şevron Overseas Eksploreyşn Limited" şirkəti arasında 2004-cü ilin 15 may və 27 oktyabr tarixlərində üçtərəfli müqavilələr imzalanaraq, aktivlərin təqdim edilmə prosedurları, mexanizmləri və müvafiq rəsmiləşdirmə qaydaları təsbit olunmuşdur. Müqavilə çərçivəsində bu xarici şirkətdə olan aktivlərin bir hissəsi qəbul edilmişdir. Aktivlərin qalan hissəsinin qəbul edilməsi məqsədilə "Şevron Overseas Eksploreyşn Limited" şirkəti və Dövlət Neft Fondu arasında danışıqlar davam etdirilmiş və bu işlər 2005-ci ilin 30 iyun tarixində Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu və "Şevron Overseas Eksploreyşn Limited" şirkəti arasında üçtərəfli müqavilənin imzalanması ilə nəticələnmişdir.

Hesabat ilində Xəzər dənizinin Azərbaycan sektorunda "Naxçıvan" perspektiv strukturunun, eləcə də "Zəfər" və "Məşəl" perspektiv strukturlarının daxil olduğu kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və HPBS-in 9.3 bəndinə uyğun olaraq "Ekson Azərbaycan Limited" şirkəti ilə aktivlərin təqdim edilməsi ilə bağlı danışıqlar aparılmış və nəticədə Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu və "Ekson Azərbaycan Limited" şirkəti arasında BALL-1388 saylı 19 sentyabr 2005-ci il tarixli müvafiq üçtərəfli müqavilə imzalanmış və təqdim edilmiş aktivlər Neft Fondu tərəfindən qəbul edilmişdir.

2005-ci ildə aktivlərin təqdim edilməsi ilə bağlı "Total E&P Azərbaycan" və "Devon Enerji Kaspian Korporeyşn" şirkətləri ilə də danışıqlar aparılmış və bu danışıqlar davam etdirilməkdədir.

Hesabat ilində Hasilatın Pay Bölgüsü Sazişləri çərçivəsində xarici neft şirkətlərindən qəbul edilmiş aktivlərin satışı təşkil edilmiş və Fondun bununla bağlı gəlirlərinin ümumi həcmi **7 612,9** milyon AZM (**1 522,6** min AZN) və ya Fondun ümumi gəlirlərinin 0,2%-ni təşkil etmişdir.

**Neft Fondunun digər daxilolmaları.**

Hesabat ilində Neft Fondunun daha bir daxilolmasını dövlət xəzinədarlığından Dövlət Neft Fonduna köçürülmüş **316 474,2** milyon AZM (**63 294,8** min AZN) məbləğində vəsait təşkil etmişdir. Belə ki, "2005-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 21 iyun 2005-ci il tarixində qəbul edilmiş Qanunla 01 iyun 2005-ci il tarixədək ixrac olunan neftin satış qiyməti ilə büdcə hesablamaları üçün nəzərdə tutulan qiymət arasında fərq hesabına dövlət büdcəsinə daxil olmuş və xəzinədarlığın xüsusi hesabında toplanmış vəsaitin Dövlət Neft Fonduna köçürülməsi müəyyən edilmişdir. Bu məbləğin Fondun ümumi gəlirlərində xüsusi çəkisi 9,6% təşkil etmişdir.

## 2005-ci ildə Dövlət Neft Fondunun vəsaitinin idarə edilməsi ilə bağlı gəlirləri

Dövlət Neft Fondunun digər vacib gəlir mənbəyini Fondun aktivlərinin yerləşdirilməsindən və idarə edilməsindən əldə edilən gəlirlər təşkil edir. Dövlət Neft Fondunun fəaliyyətini tənzimləyən hüquqi-normativ aktlara uyğun olaraq Fondun vəsaitinin idarə edilməsi ilə bağlı gəlirləri Neft Fondunun vəsaitinin (aktivlərinin) yerləşdirilməsindən, idarə olunmasından, satışından və ya digər təqdim edilməsindən və yaxud satışdankənar əldə edilən gəlirlər, aktivlərinin balans valyutasında (Azərbaycan manatı) yenidən qiymətləndirilməsindən alınan gəlirlər və sair təşkil edir. Hesabat ilində Fondun bu mənbədən əldə edilmiş gəlirlərinin həcmi 139 576,3 milyon AZM (27 915,3 min AZN) olmuşdur. Neft Fondunun gəlirlərinin ümumi strukturunda vəsaitlərin idarə edilməsi ilə bağlı gəlirlərin xüsusi çəkisi 4,2% təşkil etmişdir.

*Cədvəl 4*

### 2005-ci ildə Neft Fondunun vəsaitinin idarə olunmasından əldə edilmiş gəlirlərin strukturu

| Gəlir mənbələri | Məbləğ | |
|---|---|---|
| | mln. AZM | min AZN |
| Faiz gəlirləri və dividendlər | 139 576,3 | 27 915,3 |
| **Cəmi** | **139 576,3** | **27 915,3** |

Neft Fondunun valyuta aktivlərinin səmərəli yerləşdirilməsi və idarə olunması beynəlxalq maliyyə və valyuta bazarlarında mövcud olan vəziyyətdən asılıdır.

2005-ci il ərzində enerji daşıyıcılarına qiymətlərin artması, habelə dünyanın qabaqcıl iqtisadiyyatını təşkil edən ABŞ-da il ərzində cərəyan etmiş siyasi, iqtisadi, habelə təbiətlə bağlı proseslər dünyanın maliyyə bazarlarının konyunkturuna birbaşa təsir edirdi. İraq və Əfqanıstanda davam etmiş hərbi və sülh əməliyyatları, habelə Meksika körfəzində baş vermiş dağıdıcı qasırğaların nəticələrinin aradan qaldırılması ilə əlaqədar ABŞ-ın müdafiə və digər xərclərinin artması bu ölkənin büdcə kəsirinin genişlənməsinə, ölkədəki inflyasiya təhlükəsinin daha da güclənməsinə səbəb olmuş və buradakı iqtisadi vəziyyət ümumdünya iqtisadiyyatında, xüsusilə də maliyyə bazarlarında gərginliyin artmasına şərait yaratmışdır. Enerji daşıyıcılarının qiymətlərində davamlı artımla əlaqədar Avropa zonasının iqtisadiyyatında, eləcə də bu ölkələrin maliyyə bazarlarında da gərginlik yaşanırdı.

2005-ci ildə ABŞ-da inflyasiya təhlükələri daha da artmışdır və bununla əlaqədar inflyasiyanın cilovlanması siyasəti çərçivəsində ABŞ-ın Mərkəzi Bankı faiz dərəcəsini artıraraq ilin sonuna onu 4,25% səviyyəsinə qədər qaldırdı. Eyni zamanda ABŞ Mərkəzi Bankı tərəfindən faiz dərəcələrini artırma siyasətinin davam etdirilməsinin təsiri altında ABŞ dolları AVRO və digər aparıcı valyutalara qarşı kifayət qədər bahalaşdı.

2005-ci ilin ikinci yarısında Avrozonada iqtisadi dirçəlişin əlamətləri mövcud idi. Eyni zamanda Avropada da inflyasiyanın artım riskləri müşahidə edilib. Bunların təsiri altında






Avropa Mərkəzi Bankı son beş il ərzində ilk dəfə olaraq 2005-ci ilin dekabrında faiz dərəcəsini 2,25%-ə qədər artırdı.

2005-ci il ərzində ABŞ və Avropa Mərkəzi Banklarının faiz dərəcələrinin dinamikası *Qrafik 7-də* göstərilir.

*Qrafik 7*

### 2005-ci ildə ABŞ və Avropa Mərkəzi Banklarının faiz dərəcələri




Yuxarıda sadalanan, habelə aşağıda göstərilən digər amillərin təsiri nəticəsində 2005-ci il üzrə Fondun vəsaitlərinin idarə edilməsi ilə bağlı gəlirliliyi aşağı səviyyədə olmuşdur. Belə ki, bir tərəfdən il ərzində ABŞ Mərkəzi Bankının faiz dərəcəsinin artması şəraitində istiqrazların ABŞ dolları ilə qiymətləri enmişdir. Digər tərəfdən Dövlət Neft Fondunun 2005-ci il üçün İnvestisiya Siyasətinə uyğun olaraq Fondun vəsaitinin valyuta tərkibinin diversifikasiya edilərək, üç əsas valyutada (ABŞ dolları, AVRO və İngilis funt sterlinqi) yerləşdirildiyindən (yəni 40%-dək vəsaitlərin qeyri-dollar aktivlərinə keçirilməsi) və il ərzində Avropa Mərkəzi Bankının faiz dərəcəsi ABŞ Mərkəzi Bankının faiz dərəcəsinə nisbətdə aşağı səviyyədə olduğundan, AVRO aktivləri üzrə gəlirlilik kiçik səviyyədə olmuş, bununla yanaşı AVRO və İngilis funt sterlinqi valyutasının ABŞ dollarına qarşı məzənnələrinin davamlı enməsinin nəticəsi olaraq ABŞ dolları ifadəsində Fondun vəsaitlərinin idarə edilməsi ilə bağlı gəlirliliyin səviyyəsi aşağı düşmüşdür.

Eyni zamanda, 2005-ci ildən etibarən Neft Fondunun Beynəlxalq Muhasibat Standartlarına keçməsi ilə əlaqədar Fondun investisiya portfelinə daxil olan maliyyə aktivlərinin əvvəlki illərdən fərqli olaraq, maya dəyəri ilə deyil, real bazar dəyəri ilə hesablanması ilə əlaqədar aktivlərin dəyərində müvafiq qiymət fərqi yaranmış, bu isə öz növbəsində Fondun gəlirliliyinin azalmasında öz əksini tapmışdır. Bununla yanaşı, il ərzində Azərbaycan

manatının ABŞ dollarına qarşı məzənnəsinin kəskin möhkəmlənməsi (6,3%) şəraitində Fondun aktivlərinin manat ifadəsi ilə dəyərinin azalması nəticəsində Fondun hesabat valyutası ilə gəlirliliyinin səviyyəsi aşağı düşmüşdür.

Bütün bu amillərin nəticəsi kimi, 2005-ci ildə Fondun vəsaitinin idarə edilməsi üzrə gəlirlilik – hesabat valyutası (Azərbaycan manatı) üzrə (-)5,69%, valyuta səbəti üzrə 2,68% təşkil etmişdir.

Dövlət Neft Fondunun investisiya portfelinin idarə edilməsi Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"a uyğun olaraq həyata keçirilir. Eyni zamanda, Neft Fondunun vəsaitlərinin idarə edilməsi ilə bağlı investisiya siyasəti Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 01 mart tarixli 652 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı), o cümlədən bu proqrama daxil olan Dövlət Neft Fondunun 2005-ci il üçün İnvestisiya Siyasəti (investisiya istiqamətləri) ilə tənzimlənmişdir və bu proqrama uyğun olaraq Fondun investisiya portfelinin idarə edilməsinin proqnozlaşdırılan səmərəliliyi (bençmark) üçün tələb "3 aylıq LİBOR faiz dərəcəsi" müəyyən edilmişdir.

Hesabat ilində Neft Fondunun vəsaitlərinin yerləşdirilməsinin əsas investisiya istiqamətləri bank depozitlərinə, pul bazarı (likvidlik) fondlarına, qiymətli kağızlara, o cümlədən istiqrazlara investisiyalar təşkil etmişdir. Eyni zamanda Fondun vəsaitlərinin bir hissəsi 2 (iki) xarici menecer – Credit Swiss qrupuna daxil olan Klariden (İsveçrə) və Döyçe Bank qrupuna daxil olan Döyçe Asset Management (Almaniya) tərəfindən idarə edilmişdir. Neft Fondunun investisiya istiqamətləri *Sxem 1-də* göstərilir.

*Sxem 1*




2005-ci ildə Neft Fondunun aktivlərinin böyük hissəsi (74,6%) likvid vəziyyətdə (1 il müddətinədək) saxlanılmışdır. Neft Fondunun valyuta vəsaitində 1 - 3 il müddətinə qədər olan aktivlərin xüsusi çəkisi – 13,1%, 3 - 5 il müddətinə qədər – 8,8%, 5 - 7 il müddətinə qədər – 0,5%, 7 - 10 il müddətinə qədər isə 3,0% təşkil etmişdir *(Cədvəl 5)*.





*Cədvəl 5*

## Neft Fondunun valyuta vəsaitində aktivlərin müddətləri

*(31.12.05 tarixinə olan vəziyyət)*

| Müddəti *(il)* | İnvestisiya məbləği *(min ABŞ dolları)* | | | | | |
|---|---|---|---|---|---|---|
| | ARDNF | | Klariden | | Döyçe AsM | |
| 0 – 1 | 987 057 | 70,8% | 33 647 | 2,4% | 19 433 | 1,4% |
| 1 – 3 | 152 324 | 10,9% | 3 986 | 0,3% | 27 376 | 1,9% |
| 3 – 5 | 100 584 | 7,2% | 3 529 | 0,3% | 18 218 | 1,3% |
| 5 – 7 | 5 973 | 0,5% | – | – | 337 | 0,02% |
| 7 – 10 | 29 507 | 2,1% | 3 021 | 0,2% | 9 277 | 0,7% |
| **Cəmi** | **1 275 445** | **91,5%** | **44 183** | **3,2%** | **74 641** | **5,3%** |
| **Ümumi cəmi** | **1 394 269** | | | | | |

2005-ci ilin 31 dekabr tarixinə olan vəziyyətə görə, Neft Fondunun vəsaitinin 836,1 milyon ABŞ dollarını və ya 59,9%-ni likvid aktivlər, o cümlədən 522,3 milyon ABŞ dollarını və ya 37,4%-ni bank depozitləri, 296,5 milyon ABŞ dollarını və ya 21,3%-ni pul bazarı fondları, 17,3 milyon ABŞ dollarını və ya 1,2%-ni müxbir hesablarda saxlanılan nağd vəsaitlər təşkil etmiş, Fondun vəsaitinin 558,2 milyon ABŞ dolları və 40,1%-i qiymətli kağızlarda, o cümlədən 554,0 milyon ABŞ dolları və ya 39,8%-i suveren borc kağızları, agentliklərin istiqrazları, bank və maliyyə istiqrazlarında, 4,2 milyon ABŞ dolları və ya 0,3%-i səhmlərdə yerləşdirilmişdir. Neft Fondunun investisiya portfelinin aktivlər üzrə tərkibi *Cədvəl 6-da* göstərilir.

*Cədvəl 6*

## Neft Fondunun valyuta vəsaitinin aktivlər üzrə tərkibi

*(31.12.05 tarixinə olan vəziyyət)*

*min ABŞ dolları*

| | ARDNF | | Klariden | | Döyçe AsM | |
|---|---|---|---|---|---|---|
| **Qiymətli kağızlar:** | **458 257** | **32,9%** | **32 653** | **2,4%** | **67 281** | **4,8%** |
| – Suveren borc kağızları | 10 106 | 0,7% | – | – | 26 816 | 1,9% |
| – Agentliklərin istiqrazları | 173 874 | 12,5% | 9 901 | 0,7% | – | – |
| – Bank və maliyyə istiqrazları | 274 277 | 19,7% | 18 549 | 1,4% | 40 465 | 2,9% |
| – Səhmlər | – | – | 4 203 | 0,3% | – | – |
| **Nağd vəsaitlər:** | **817 188** | **58,6%** | **11 530** | **0,8%** | **7 360** | **0,5%** |
| – Bank depozitləri | 510 851 | 36,6% | 11 420 | 0,8% | – | – |
| – Pul bazarı fondları | 291 337 | 20,9% | – | – | 5 166 | 0,4% |
| – Nağd hesablar | 15 000 | 1,1% | 110 | 0,008% | 2 194 | 0,1% |
| **Cəmi** | **1 275 445** | **91,5%** | **44 183** | **3,2%** | **74 641** | **5,3%** |
| **Ümumi cəmi** | **1 394 269** | | | | | |

Hesabat ilində Dövlət Neft Fondu tərəfindən, habelə xarici menecerlərin idarə olunmasına verilmiş vəsaitlərin qiymətli kağızlara yerləşdirildiyi maliyyə qurumlarının, habelə qiymətli kağızların kredit reytinqi aparıcı kredit reytinq agentliklərinin (S&P, Mudiz, Fitç) müəyyən etdiyi investisiya dərəcəli kredit reytinqindən aşağı olmamışdır. Bunu *Cədvəl 7-də* görmək mümkündür.

*Cədvəl 7*

### 2005-ci ildə Neft Fondunun, habelə xarici menecerlərin vəsait yerləşdirdiyi qiymətli kağızların, habelə emitentlərin reytinqlər üzrə təsnifatı

*(min ABŞ dolları)*

| Moody/S&P-nin müəyyən etdiyi reytinqlər | ARDNF | | Klariden | | Döyçe AsM | |
|---|---|---|---|---|---|---|
| AAA (Aaa) | 194 664 | 35,1% | 18 877 | 3,4% | – | – |
| AA+, AA, AA-<br>Aa1, Aa2, Aa3 | 105 125 | 19,0% | 2 020 | 0,4% | 7 924 | 1,4% |
| A+, A, A-<br>A1, A2, A3 | 118 105 | 21,3% | 7 553 | 1,4% | 41 545 | 7,5% |
| BBB+, BBB, BBB-<br>Baa1, Baa2, Baa3 | 40 363 | 7,3% | – | – | 17 812 | 3,2% |
| **Cəmi** | **458 257** | **82,7%** | **28 450** | **5,2%** | **67 281** | **12,1%** |
| **Ümumi cəmi** | **553 988** | | | | | |

Qiymətli kağızların hər bir reytinq üzrə xüsusi çəkiləri *Qrafik 8-də* göstərilir.

*Qrafik 8*

### Qiymətli kağızların reytinqlər üzrə təsnifatı




2005-ci ildə Neft Fondunun vəsaitlərinin bir hissəsi 2 (iki) xarici menecer – Credit Swiss qrupuna daxil olan Klariden (İsveçrə) və Döyçe Bank qrupuna daxil olan Döyçe Asset Management (Almaniya) tərəfindən idarə edilmişdir. 31 dekabr 2005-ci il tarixinə xarici menecerlərin idarə edilməsində olan vəsaitin ümumi miqdarı təqribən 118,8 milyon ABŞ dolları təşkil etmişdir, bu isə Fondun aktivlərində 8,5%-ə bərabərdir. Klaridenin idarə edilməsində olan aktivlərin Neft Fondunun aktivlərində olan xüsusi çəkisi 3,2%, Döyçe Asset Managementin isə 5,3% təşkil etmişdir.





Xarici menecerlərə idarəetməyə verilmiş aktivlərin ARDNF-in aktivlərində xüsusi çəkilərini *Qrafik 9-da* görmək mümkündür.

*Qrafik 9*

### Xarici menecerlərə idarəetməyə verilmiş vəsaitlərin ARDNF-in aktivlərində xüsusi çəkisi




2005-ci il ərzində xarici menecerlər tərəfindən fərqli gəlirlilik göstəriciləri əldə edilmişdir. Hər iki xarici menecerin gəlirlilik göstəricilərinin dinamikasını *Qrafik 10* və *Qrafik 11-də* müqayisə etmək mümkündür.

*Qrafik 10*

### 2005-ci ildə Döyçe AsM tərəfindən Neft Fondunun vəsaitlərinin idarə edilməsindən əldə edilmiş faktiki gəlirliliyin müqayisəli dinamikası

*(aylar üzrə)*



*Qrafik 11*

## 2005-ci ildə Klariden tərəfindən Neft Fondunun vəsaitlərinin idarə edilməsindən əldə edilmiş faktiki gəlirliliyin müqayisəli dinamikası

*(aylar üzrə)*




2005-ci il üzrə, eləcə də vəsaitlərin idarəetməyə verildiyi vaxtdan etibarən xarici menecerlərin faktiki illik gəlirlilik göstəricilərini *Qrafik 12* vasitəsilə müqayisə etmək mümkündür.

*Qrafik 12*

## 2005-ci ildə xarici menecerlərin faktiki illik gəlirliliyi




Qrafiklərdən göründüyü kimi, 2005-ci ildə Klaridenin faktiki illik gəlirliliyi 4,24%, Döyçe AsM-in isə 2,82% təşkil etmişdir. Vəsaitlərin verildiyi vaxtdan etibarən Klaridenin əldə etdiyi faktiki gəlirlilik göstəricisi 2,94%, Döyçe AsM-in isə 2,40% təşkil etmişdir.





Hesabat ilində ARDNF-in valyuta portfellərinin illik gəlirliliyi ABŞ dolları üzrə 2,79%, AVRO üzrə 2,2%, İngiltərə funt sterlinqi üzrə 4,71% təşkil etmişdir. Valyuta portfellərinin illik gəlirlilik göstəricilərini *Qrafik 13-də* müşahidə etmək mümkündür.

*Qrafik 13*

## 2005-ci il üzrə ARDNF-in valyuta portfellərinin illik gəlirliliyi




Valyuta səbəti üzrə ARDNF-in idarəetmədən əldə olunan real gəlirlilik göstəricilərini *Qrafik 14-də* müqayisə etmək mümkündür.

*Qrafik 14*

## 2005-ci ildə ARDNF-in valyuta portfellərinin idarə olunmasının real gəlirliliyi



2001 - 2005-ci illər ərzində baza valyutası – ABŞ dolları ilə ARDNF-in vəsaitlərinin idarə olunmasından əldə edilmiş orta illik gəlirlilik 2,58% təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 01 mart tarixli 652 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Dövlət Neft Fondunun 2005-ci il üçün İnvestisiya Siyasəti (investisiya istiqamətləri) ilə Neft Fondunun investisiya portfelinin valyuta tərkibi (səbəti) üçün tələblər müəyyən edilmişdir. Bu tələblərə uyğun olaraq 2005-ci ildə Neft Fondunun investisiya portfelinin məcmu dəyərinin 55%-i ABŞ dollarında ifadə olunan aktivlərə, 35%-i AVRO-da ifadə olunan aktivlərə, 5%-i İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə, Neft Fondunun investisiya portfelinin məcmu dəyərinin 5%-i isə "A" (Standart and Purz, Fiç) və ya "A2" (Mudiz) kredit reytinqindən aşağı olmayan uzunmüddətli ölkə (suveren borc) reytinqinə malik olan ölkələrin valyutalarında və ya ABŞ dollarında və xüsusi çəkidəki mütənasiblik əsasında bölüşdürülərək ABŞ dolları, AVRO və İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə yerləşdirilməsi müəyyən edilmişdir. Qeyd olunan tələblərin icrası çərçivəsində 31 dekabr 2005-ci il tarixinə Fondun investisiya portfelinin (Fondun aktivlərinin həcmindən xərclər portfeli çıxılmaqla) qeyd olunan valyutalar arasında bölgüsü ABŞ dolları üzrə 53,4%, AVRO üzrə 41%, İngiltərə funt sterlinqi üzrə 5,6% təşkil etmişdir (*Qrafik 15*).

*Qrafik 15*

ARDNF-in investisiya portfelinin valyuta strukturu

*(31.12.2005-ci il tarixinə)*




## 2005-ci ildə Dövlət Neft Fondunun xərcləri

Azərbaycan Respublikası Prezidentinin 01 mart 2005-ci il tarixli 201 saylı Fərmanı ilə təsdiq edilmiş Fondun 2005-ci il üçün büdcəsinin icrasına uyğun olaraq hesabat ilində Dövlət Neft Fondunun vəsaiti hesabına iki mühüm layihə – qaçqınların və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması və məskunlaşdırılması problemlərinin həlli layihəsi və Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi davam etdirilmiş və eyni zamanda Fondun vəsaitlərinin bir hissəsi dövlət büdcəsinə transfer edilmişdir.

Dövlət Neft Fondunun 2005-ci il üzrə büdcə xərclərinin strukturu *Qrafik 16-da* verilir.

*Qrafik 16*

2005-ci ildə Dövlət Neft Fondunun büdcə xərclərinin tərkibi

*(milyon AZM və min AZN ilə)*




**Qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması tədbirlərinin maliyyələşdirilməsi.**

Neft Fondunun 2005-ci il üçün büdcəsinin icrasına uyğun olaraq hesabat ilində qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması tədbirlərinin maliyyələşdirilməsinə **201 948,2** milyon AZM (40 389,6 min AZN) vəsait ayrılmışdır. Bu vəsaitin **8 334,7** milyon AZM (1 666,9 min AZN) Azərbaycan Respublikası Prezidentinin 22.08.01 tarixli 562 saylı "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində **Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması** problemlərinin həlli haqqında", 07.09.01 tarixli 577 saylı "Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində **Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması** ilə bağlı bəzi tədbirlər haqqında" və 13.05.02 tarixli 700 saylı "**Biləsuvar rayonu ərazisində yerləşən beş çadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması** ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanlarının icrası üzrə tədbirlə-

rin maliyyələşdirilməsinə yönəldilmişdir. Qeyd edilən üç Fərman üzrə tədbirlərin maliyyələşdirilməsi üçün Neft Fondundan ümumilikdə 359 milyard AZM vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Bu Fərmanların icrasına uyğun olaraq 2001 - 2005-ci illər ərzində 343 milyard AZM-ə (68 milyon AZN) yaxın vəsait təyinatı üzrə istifadə olunmuşdur.

2005-ci ildə eyni zamanda **192 979,8** milyon AZM (38 595,9 min AZN) Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 04 fevral tarixli 80 saylı "Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində didərgin düşmüş, **Bərdə və Ağcabədi rayonları ərazisində çadır düşərgələrində, eləcə də Bərdə rayonu ərazisində dəmir yolu üzərindəki yük vaqonlarında müvəqqəti yerləşdirilmiş Ağdam və digər rayonlardan olan 3860 məcburi köçkünlərin** sosial, mənzil-məişət vəziyyətinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi tədbirləri haqqında" Sərəncamına, habelə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 01 oktyabr tarixli 132 saylı Fərmanına uyğun olaraq Naxçıvan Muxtar Respublikasında məcburi köçkün ailələri üçün 100 ədəd fərdi evlərin tikintisini nəzərdə tutan tədbirlərin maliyyələşdirilməsinə yönəldilmişdir.



Ağdam rayonunda məcburi köçkünlər üçün salınmış qəsəbələrdən görüntülər







2005-ci ildə eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 01 iyul 2004-cü il tarixli 298 saylı Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə" Dövlət Proqramı çərçivəsində Biləsuvar, Füzuli, Ağdam, Ağcabədi rayonları ərazisində 4179 məcburi köçkün ailəsi üçün yeni qəsəbələrin salınması üzrə tədbirlərin layihələndirilməsinin maliyyələşdirilməsi üçün Dövlət Neft Fondundan 633,7 milyon AZM (126,8 min AZN) vəsait ayrılmışdır.

Yuxarıda qeyd olunan Fərmanlar üzrə tədbirlərə ayrılan vəsait qoyuluşunun strukturu *Cədvəl 8-də* verilir.

*Cədvəl 8*

### 2005-ci ildə qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması layihəsinin maliyyələşdirilməsi üzrə Neft Fondunun xərclərinin təsnifatı

| | Ödənilmişdir (mlrd. AZM) | | | | | |
|---|---|---|---|---|---|---|
| | Azərbaycan Respublikası Prezidentinin 22.08.01 tarixli 562 N-li Fərmanı üzrə | Azərbaycan Respublikası Prezidentinin 07.09.01 tarixli 577 N-li Fərmanı üzrə | Azərbaycan Respublikası Prezidentinin 13.05.02 tarixli 700 N-li Fərmanı üzrə | Azərbaycan Respublikası Prezidentinin 04.02.04 tarixli 80 N-li Sərəncamı üzrə | Azərbaycan Respublikası Prezidentinin 01.10.04 tarixli 132 N-li Fərmanı üzrə | Azərbaycan Respublikası Prezidentinin 01.07.04 tarixli 298 N-li Sərəncamı üzrə |
| Yaşayış evlərinin tikintisi | 1,73 | 0,10 | – | 186,81* | 4,10 | |
| İnfrastruktur və sosial-mədəni obyektlərin tikintisi | 1,87 | 0,12 | 4,51 | | | |
| Layihə işlərinin görülməsi | 0,004 | – | – | 0,66 | | 0,63* |
| Sifarişçi təşkilatların ofislərinin saxlanılması xərcləri | – | – | – | 1,40 | | |
| **Cəmi** | **3,60** | **0,22** | **4,51** | **188,87** | **4,10** | **0,63** |

* Bu məbləğlərə xəzinədarlıq xidmət haqları da daxildir.

Qeyd olunan layihələrin maliyyələşdirilməsi üçün ayrılan vəsaitlər Dövlət Neft Fondu tərəfindən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, habelə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən təqdim edilmiş və müvafiq qaydada əsaslandırılmış sifarişləri əsasında adı çəkilən qurumların dövlət xəzinədarlığındakı

hesablarına köçürülmüş və sonra sifarişçi təşkilatlar vasitəsilə podratçı təşkilatlara ödənilmişdir. Tikinti işlərinin böyük hissəsinin, o cümlədən Ağdam və Füzuli rayonlarından didərgin düşmüş məcburi köçkünlərin məskunlaşdırılması problemlərinin həlli ilə bağlı layihənin, habelə Bərdə və Ağcabədi rayonları ərazisində çadır düşərgələrində, eləcə də Bərdə rayonu ərazisində dəmir yolu üzərindəki yük vaqonlarında müvəqqəti yerləşdirilmiş Ağdam və digər rayonlardan olan 3860 məcburi köçkünlərin sosial, mənzil-məişət vəziyyətinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi tədbirləri ilə bağlı işlərin sifarişçisi kimi Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu çıxış edir. Ermənistan ərazisindən didərgin salınmış azərbaycanlıların məskunlaşması probleminin həlli ilə əlaqədar layihənin əsas sifarişçisi kimi Azərbaycan Respublikasının İşğaldan Azad Olunmuş Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlik çıxış edir. Həmin layihənin yarımçıq qalmış evlərin tikintisi ilə bağlı hissəsinin sifarişçisi Dövlətqaçqınkomun Tikilməkdə olan Müəssisələr Müdiriyyətidir. Biləsuvarda məskunlaşmış məcburi köçkünlərlə bağlı Prezident Fərmanının icrası ilə əlaqədar sifarişçi funksiyalarını Füzuli rayonunun Haramı ərazisində qəsəbələrin inşası üzrə – Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlik, Biləsuvar rayonunda qəsəbələrin inşası üzrə – Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu icra edir. Sifarişçi təşkilatlar layihələrin icrasına cari nəzarəti həyata keçirir, müvafiq tenderlərin keçirilməsini və digər müvafiq prosedurların aparılmasını təmin edir, yerlərdə açılmış ofisləri vasitəsilə işləri təşkil edir və əlaqələndirir. 2005-ci ildə layihələrin həyata keçirilməsi ilə bağlı Dövlət Neft Fondunun xərclərinin aylar üzrə təsnifatı *Qrafik 17-də* əks etdirilir.

*Qrafik 17*

**Qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə layihələrin maliyyələşdirilməsi ilə əlaqədar 2005-ci ilin ayları üzrə ayrılmış vəsaitin həcmi**
*(milyard AZM və milyon AZN ilə)*




2005-ci ildə qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması tədbirlərinin maliyyələşdirilməsi ilə bağlı Neft Fondunun xərcləri Fondun büdcə xərclərinin 17,3%-ni təşkil etmişdir.





**Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi.**

Hesabat ilində Dövlət Neft Fondunun 2005-ci il üçün büdcəsinin icrası çərçivəsində, habelə Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli 739 N-li "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Fərmanına uyğun olaraq Fondun vəsaitinin bir hissəsi Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə yönəldilmişdir. Bu layihənin maliyyələşdirilməsi Dövlət Neft Fondu tərəfindən 2002-ci ilin oktyabr ayından etibarən həyata keçirilir.

2005-ci ildə Dövlət Neft Fondunun bu istiqamət üzrə xərcləri 205 000,0 milyon AZM (41 000,0 min AZN) və ya 44,1 milyon ABŞ dolları təşkil etmişdir. Bu xərclər Fondun büdcə xərclərinin 17,6%-ni təşkil etmişdir.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri (BTC) layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi ilə bağlı Neft Fondunun ödənişlərinin illər üzrə dinamikası *Qrafik 18-də* göstərilir.

*Qrafik 18*

**2002 - 2005-ci illər ərzində Dövlət Neft Fondu tərəfindən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinin maliyyələşdirilməsi**




Neft Fondunun təsdiq edilmiş büdcəsi çərçivəsində 2002 - 2005-ci illər ərzində Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi məqsədilə Dövlət Neft Fondundan ümumilikdə 229 milyon ABŞ dolları miqdarında vəsait ödənilmişdir. Bu məbləğə eyni zamanda BTC layihəsinin maliyyələşdirilməsi məqsədi ilə layihənin sponsorlar qrupu şirkətlərinə mü-

vəqqəti maliyyələşdirmə krediti üzrə köçürülmüş faiz ödənişlərinin və Azərbaycan BTC Ltd şirkətinin inzibati xərclərinin mütənasib olaraq maliyyələşdirilməsi də daxildir.

2005-ci ildə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin tikintisi üzrə işlər yekun mərhələyə çatdırılmışdır. Belə ki, ötən ilin 25 may tarixində kəmərin Azərbaycan hissəsi *(Şəkil)*, 12 oktyabr tarixində isə Gürcüstan hissəsi istismara verildi.

**Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin istismara verilməsi ilə bağlı dövlət mərasimi**




Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin Azərbaycan hissəsinin istismara verilməsi (kəmərin sürgüsünün açılışı mərasimi, 25 may 2005-ci il, Bakı şəhəri, Səngəçal terminalı)

**Azərbaycan Respublikası 2005-ci il dövlət büdcəsinə transfert.**

Əvvəlki illərdə olduğu kimi, 2005-ci ildə də Dövlət Neft Fondunun büdcəsinin icrasına uyğun olaraq Fondun vəsaitinin əhəmiyyətli hissəsi dövlət büdcəsinə transfer edilmişdir. Azərbaycan Respublikası Prezidentinin Dövlət Neft Fondunun 2005-ci il büdcəsi barədə 01 mart 2005-ci il tarixli Fərmanına, habelə Dövlət Neft Fondunun 2005-ci il büdcəsinin icrası ilə bağlı bəzi tədbirlər haqqında 01 mart 2005-ci il 652 saylı Sərəncamı ilə təsdiq edilmiş 2005-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitlərinin xərc istiqamətlərinə (proqramına) uyğun olaraq hesabat ilində Dövlət Neft Fondundan dövlət büdcəsinə 750 000,0 milyon AZM (150 000,0 min AZN) vəsait köçürülmüşdür. 2003 - 2005-ci illər ərzində Neft Fondundan dövlət büdcəsinə edilmiş transfertlərin ümumi məbləği 1 900,0 milyard AZM (380 000 min AZN) təşkil edir. Transfertlər çərçivəsində 500 milyard AZM 2003-cü ildə, 650 milyard AZM 2004-cü ildə, 750 milyard AZM isə 2005-ci il ərzində köçürülmüşdür.





Vəsaitlər Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Baş Xəzinədarlığındakı hesabına köçürülüb. Bu xərclər Fondun təsdiq edilmiş büdcə xərclərinin 64,4%-ni təşkil etmişdir. 2005-ci ildə Neft Fondundan dövlət büdcəsinə transfertlərin aylar üzrə ayırmaları *Qrafik 19* vasitəsilə müşahidə etmək olar.

*Qrafik 19*

2005-ci ildə Azərbaycan Respublikası dövlət büdcəsinə transfertlə bağlı ayırmalar (aylar üzrə)




## 2005-ci ildə Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər

Dövlət Neft Fondu haqqında Əsasnaməyə uyğun olaraq Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər smetası Fondun İcraçı Direktorunun təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir. Neft Fondunun 2005-ci ildə idarə edilməsi ilə bağlı xərclər smetası Azərbaycan Respublikası Prezidentinin 01 mart 2005-ci il tarixli 652 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

2005-ci ildə Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri Fondun təsdiq edilmiş smeta xərclərinə nisbətən (15 871,0 milyon AZM) 7 838,3 milyon AZM (1 567,7 min AZN) və ya 49,4% səviyyəsində yerinə yetirilmişdir və qənaət edilmiş vəsaitin həcmi 8 032,7 milyon AZM (1 606,5 min AZN) təşkil etmişdir.

Neft Fondunun idarə edilməsi ilə bağlı xərclərin tərkibində əməyin ödənişi fondu üzrə xərclər – 955,1 milyon AZM (191 min AZN) ( 12,2%), Dövlət Sosial Müdafiə Fonduna ayırmalar – 209,5 milyon AZM (41,9 min AZN) (2,67%), malların alınması və xidmətlərin (dəftərxana, ezamiyyə, nəqliyyat, kommersiya, mühafizə, rabitə, kommunal, bank, konvertasiya, xarici auditin keçirilməsi və s.) haqqının ödənilməsi ilə bağlı xərclər ümumilikdə –

6 273,4 milyon AZM (1 254,7 min AZN) (80,0%), əsas vəsaitlərin alınması – 123,0 milyon AZM (24,6 min AZN) (1,56%), qeyri-maddi aktivlərin alınması – 277,3 milyon AZM (55,5 min AZN) (3,54%) təşkil etmişdir.

Neft Fondunun vəsaitlərinin xarici menecerlərə idarəetməyə verilməsi ilə bağlı xarici menecerlər tərəfindən tutulan idarəetmə haqları bilavasitə idarəetməyə verilmiş müvafiq investisiya portfeli hesabına tutulmuşdur. 2005-ci ildə iki xarici menecer tərəfindən idarəetməyə verilmiş investisiya portfelləri hesabına ümumilikdə 289,7 min ABŞ dolları məbləğində idarəetmə haqqı tutulmuşdur.

Eyni zamanda, 2005-ci ildə Fondun investisiya portfelində olan qiymətli kağızların yenidən qiymətləndirilməsi ilə bağlı xərcləri 442 059,2 milyon AZM-ə (88 411,8 min AZN) bərabər olmuşdur. Neft Fondunun aktivlərini xarici valyuta aktivləri və ya xarici valyutada ifadə edilmiş investisiya vasitələri təşkil etdiyindən, eyni zamanda Fondun vəsaiti diversifikasiya olunaraq ABŞ dolları, AVRO, İngiltərə funt sterlinqi və digər valyutalarda yerləşdirildiyindən, digər tərəfdən Fondun balansı Azərbaycan manatında tərtib edildiyi üçün il ərzində xarici valyutaların mübadilə məzənnələrinin dəyişməsi, eləcə də xarici valyutalara nisbətdə Azərbaycan manatının dəyişərək, möhkəmlənməsi ilə əlaqədar olaraq Fondun aktivlərinin (Azərbaycan manatı ilə ifadə edilməklə) yenidən qiymətləndirilməsi zamanı Neft Fondu yuxarıda göstərilən əlavə balans xərclərinə məruz qalmışdır. Mühasibat uçotu qaydalarına uyğun olaraq bu xərclər Fondun balansında öz əksini tapır və nəticədə Fondun Azərbaycan manatında ifadə olunan valyuta aktivlərinin dəyəri azalır, halbuki xarici valyuta aktivlərinin alıcılıq qabiliyyəti itmir.

2005-ci ildə eyni zamanda Dövlət Neft Fondu tərəfindən 17 451,2 milyon AZM (3 490,2 min AZN) mənfəət və digər vergilər dövlət büdcəsinə ödənilmişdir.









# Neft Fondunun 2005-ci il Büdcəsinin İcrası

Neft Fondunun 2005-ci il üçün büdcəsi Azərbaycan Respublikası Prezidentinin 01 mart 2005-ci il tarixli 201 saylı Fərmanı ilə təsdiq edilmişdir.

**Gəlirlər.**

2005-ci ildə Neft Fondunun gəlirləri Fondun büdcəsində nəzərdə tutulmuş vəsaitə (**1 078 033,3** milyon AZM) nisbətən təqribən 206% artıq icra olunaraq **3 300 323,9** milyon AZM (**660 064,8** min AZN) təşkil etmişdir. Gəlirlərin mənbələr üzrə icra vəziyyətini *Cədvəl 9* əks etdirir.

2005-ci ildə **mənfəət neftinin satışı ilə bağlı** gəlirlər büdcədə nəzərdə tutulmuş vəsaitdən (849 562,5 milyon AZM) 1 863 532,3 milyon AZM və ya 219% artıq icra olunmuşdur. Gəlirlərin icra olunma səviyyəsinin büdcə göstəricilərini böyük fərqlə üstələməsi ilk növbədə hesabat ili ərzində beynəlxalq bazarlarda neftin qiymətlərinin yüksək səviyyədə olması ilə bağlı olub. Belə ki, 2005-ci il üçün Fondun büdcəsində 1 barrel neftin qiyməti 25 ABŞ dolları səviyyəsində proqnozlaşdırılıb, faktiki olaraq isə ötən il üzrə Neft Fondunun payına düşən neftin 1 barrelinin orta çəkili xalis mədaxil (nəqliyyat və marketinq xərcləri çıxılmaqla) qiyməti 49,5 ABŞ dolları təşkil etmişdir. Eyni zamanda Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin istismara verilməsinin 2005-ci ildə planlaşdırıldığını nəzərə alaraq, Fondun 2005-ci il üçün büdcəsində mənfəət neftinin satışı ilə bağlı daxilolmaların miqdarı Azərbaycan Respublikasının bu layihədəki iştirak payına uyğun olaraq kəmərin doldurulmasına (2,5 milyon barrel) və tamamlama işləri üzrə zəmanətlərin ödənilməsinə (2 milyon barrel) yönəldiləcək (ümumilikdə 4,5 milyon barrel) mənfəət neftinin həcmi istisna edilməklə proqnozlaşdırılmışdır. Kəmərin istismara verilməsindən sonra Azərbaycan Respublikasının qarşısında duran öhdəliklərin yerinə yetirilməsi, o cümlədən boru kəmərinin xam neftlə doldurulması, habelə xarici maliyyə qurumlarından cəlb edilmiş kredit vəsaiti üzrə əks-zəmanətin verilməsi və bunun müqabilində Azərbaycan Respublikasının payına düşən mənfəət neftinin müvafiq həcmi hesabına xam neftin təqdim edilməsi proseduru "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli Fərmanı ilə tənzimlənir. Kəmərin tam gücü ilə istifadəyə verilməsinin 2006-cı ilə keçməsi ilə əlaqədar olaraq və kəmərin xam neftlə doldurulması hesabat ilində başa çatmadığından ötən ildə borunun doldurulması üçün tələb olunan neftin qalan hissəsinin (təqribən 1,3 milyon barrel), habelə zəmanətlərin ödənilməsinə (2 milyon barrel) yönəldilməsi nəzərdə tutulan mənfəət neftinin satışından əldə olunmuş vəsaitlər Dövlət Neft Fondunun əlavə daxilolmasını təşkil etmişdir.

**Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün ödənilən akrhesabı ödənişlərdən** Neft Fondunun daxilolmaları büdcədə nəzərdə tutulmuş 43 438,5 milyon AZM-in proqnozuna nisbətən 93,8% səviyyəsində icra olunaraq 40 756,0 milyon AZM **(8 151,2 min AZN)** təşkil etmişdir. Bu mənbə üzrə daxilolmaların icra səviyyəsinin proqnozlara nisbətən aşağı olmasının səbəbi onunla bağlı olmuşdur ki, büdcə üzrə gəlir mənbələri formalaşdırılarkən Azərbaycan manatının ABŞ dollarına qarşı orta illik məzənnəsi büdcədə 4 925 manat nəzərdə tutulmuş, halbuki il ərzində AZM - ABŞ dolları üzrə orta illik mübadilə məzənnəsi təqribən 4 729 AZM (0,9458 AZN) təşkil etmişdir.





*Cədvəl 9*

Neft Fondunun 2005-ci il büdcəsinin gəlir maddələrinin icrası

| № | Gəlir mənbələri | Gəlirlərin məbləği | | | | İcra faizi |
|---|---|---|---|---|---|---|
| | | Təsdiq olunmuş | | Faktiki | | |
| | | mln. AZM | min AZN | mln. AZM | min AZN | |
| 1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərti ilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçiləri, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 849 562,5 | 169 912,5 | 2 713 094,8 | 542 619,0 | 319,4 |
| 2. | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün ödənilən akrhesabı ödənişlər | 43 438,5 | 8 687,7 | 40 756,0 | 8 151,2 | 93,8 |
| 3. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər | 73 875,0 | 14 775,0 | 78 217,6 | 15 643,5 | 105,9 |
| 4. | Fondun aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər | 110 664,8 | 22 132,9 | 139 576,3 | 27 915,3 | 126,1 |
| 5. | Digər gəlirlər və daxilolmalar | 492,5 | 98,5 | 7 612,9 | 1 522,6 | 1 545,8 |
| 6. | İxrac olunan neftin satış qiyməti ilə büdcə hesablamaları üçün nəzərdə tutulan qiymət arasında fərq hesabına dövlət büdcəsinə daxil olmuş və xəzinədarlığın xüsusi hesabında toplanaraq Neft Fonduna köçürülmüş vəsait | | | 316 474,2 | 63 294,8 | |
| 7. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən ödənilən bonuslar (mükafatlar) | | | 4 592,1 | 918,4 | |
| | **Cəmi** | **1 078 033,3** | **215 606,6** | **3 300 323,9** | **660 064,8** | **306** |

**Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər** büdcədə nəzərdə tutulduğundan (73 875,0 milyon AZM) 4 342,6 milyon AZM və ya 5,9% artıq yerinə yetirilmişdir.

2005-ci ildə **Fondun aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər** büdcədə nəzərdə tutulduğundan (110 664,8 milyon AZM) 26,1% artıq yerinə yetirilərək, **139 576,3** milyon AZM (**27 915,3** min AZN) təşkil etmişdir.

Hesabat ilində eyni zamanda Dövlət Neft Fondu tərəfindən neft-qaz sazişləri çərçivəsində sərmayəçilər (xarici neft şirkətləri) tərəfindən verilən aktivlərin (köhnəlmiş və ya istifadə olunmayan metal qırıntıları, borular) satışı təşkil olunmuş və bu aktivlərin satışından (büdcədə 492,5 milyon AZM nəzərdə tutulmuşdur) **7 612,9** milyon AZM (**1 522,6** min AZN) məbləğində gəlirlər əldə edilmişdir. Bu gəlirlər digər gəlirlər və daxilolmalar maddəsində əks etdirilmişdir.

Hesabat ilində eyni zamanda Neft Fonduna Fondun 2005-ci il büdcəsində nəzərdə tutulmayan vəaitlər daxil olmuşdur.

Belə ki, 2005-ci ildə Fondun daha bir daxilolmasını dövlət xəzinədarlığından Dövlət Neft Fonduna köçürülmüş **316 474,2** milyon AZM (**63 294,8** min AZN) məbləğində vəsait təşkil etmişdir. Belə ki, "2005-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 21 iyun 2005-ci il tarixində qəbul edilmiş Qanunla 01 iyun 2005-ci il tarixədək **ixrac olunan neftin satış qiyməti ilə büdcə hesablamaları üçün nəzərdə tutulan qiymət arasında fərq hesabına dövlət büdcəsinə daxil olmuş və xəzinədarlığın xüsusi hesabında toplanmış vəsaitin** Dövlət Neft Fonduna köçürülməsi müəyyən edilmişdir.

Hesabat ilində Dövlət Neft Fondunun növbəti daxilolmasını **neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən ödənilmiş 4 592,1** milyon AZM (918,4 min AZN) **məbləğində bonuslar (mükafatlar)** təşkil etmişdir.

**Xərclər.**

2005-ci ildə Neft Fondunun büdcə xərcləri Fondun büdcəsində nəzərdə tutulmuş vəsaitə **(1 172 871,0 milyon AZM)** nisbətən kəsirlə və ya 99,3% səviyyəsində icra olunaraq **1 164 786,5** milyon AZM (**232 957,3** min AZN) təşkil etmişdir. Fondun büdcə xərclərinin icra səviyyəsi *Cədvəl 10-da* göstərilir.

Hesabat ilində Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarının icrasına uyğun olaraq, habelə Fondun 2005-ci il üçün büdcəsi çərçivəsində **qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələlərinin həlli üzrə tədbirlərin maliyyələşdirilməsi ilə bağlı xərc maddəsi** büdcədə nəzərdə tutulduğu (202 000,0 milyon AZM) qədər, təqribən 100% yerinə yetirilərək 201 948,2 AZM (40 389,6 AZN) səviyyəsində icra olunmuşdur.

**Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi ilə bağlı xərclər** büdcədə nəzərdə tutulduğu qədər (205 000,0 milyon AZM) -100% səviyyəsində icra olunmuşdur. Burada qeyd edilməlidir ki, Azərbaycan Respublikası Prezidentinin 01 mart 2005-ci il tarixli 201 saylı Fərmanı ilə təsdiq edilmiş Neft Fondunun 2005-ci il üçün büdcəsində Fondun bu maddə üzrə xərcləri 105 000,0 milyon AZM səviyyəsində nəzərdə tutulmuşdur. Hesabat ilində Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2005-ci il tarixli Fərmanı ilə Dövlət Neft Fondunun 2005-ci il üçün büdcəsində dəyişikliklər edilmiş və bu dəyişikliklərə uyğun olaraq Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri Layihəsinin tikintisi ilə bağlı xərclərin artmasını nəzərə alaraq və bu artımın Azərbaycan Respublikasının həmin layihədəki iştirak payına düşən hissəsinin Neft Fondu tərəfindən maliyyələşdirilməsini təmin etmək məqsədi ilə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri Layihəsinin maliyyələşdirilməsi ilə bağlı Fondun 2005-ci il üçün büdcə xərcləri 105 000,0 milyon AZM-dən 205 000,0 milyon AZM-ə qədər artırıldı.





2005-ci ildə **Azərbaycan Respublikasının 2005-cı il dövlət büdcəsinə transfert** büdcədə nəzərdə tutulduğu (750 000,0 milyon AZM) miqdarda tam şəkildə -100% icra olunmuşdur.

**Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri** Fondun təsdiq edilmiş smeta xərclərinə (15 871,0 milyon AZM) nisbətən 7 838,3 milyon AZM (1 567,7 min AZN) və ya 49,4% səviyyəsində yerinə yetirilmişdir və qənaət edilmiş vəsaitin həcmi 8 032,7 milyon AZM (1 606,5 min AZN) təşkil etmişdir.

*Cədvəl 10*

| № | Xərc istiqamətləri | Xərclərin məbləği | | | | İcra faizi |
|---|---|---|---|---|---|---|
| | | Təsdiq olunmuş | | Faktiki | | |
| | | mln. AZM | min AZN | mln. AZM | min AZN | |
| | **Büdcə xərcləri** | | | | | |
| 1. | Qaçqın və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi | 202 000,0 | 40 400,0 | 201 948,2 | 40 389,6 | 100,0 |
| 2. | Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi ilə bağlı xərclər | 205 000,0 | 41 000,0 | 205 000,0 | 41 000,0 | 100,0 |
| 3. | Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsinə transfert | 750 000,0 | 150 000,0 | 750 000,0 | 150 000,0 | 100,0 |
| 4. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 15 871,0 | 3 174,2 | 7 838,3 | 1 567,7 | 49,4 |
| | **Cəmi büdcə xərcləri** | **1 172 871,0** | **234 574,2** | **1 164 786,5** | **232 957,3** | **99,3** |
| | **Büdcədənkənar xərclər və ödənişlər** | | | | | |
| | Fondun valyuta aktivlərinin yenidən qiymətləndirilməsi ilə bağlı xərclər | – | – | 442 059,2 | 88 411,8 | |
| | Mənfəət vergisi və digər vergi ödənişləri | – | – | 17 451,2 | 3 490,2 | |
| | **Cəmi büdcədənkənar xərclər** | – | – | **459 510,4** | **91 902,0** | |

Hesabat ilində **Fondun büdcədənkənar xərcləri və ödənişləri 459 510,4** milyon AZM (91 902,0 min AZN) təşkil etmişdir.

2005-ci ildə Neft Fondunun 442 059,2 milyon AZM (88 411,8 min AZN) məbləğində valyuta aktivlərinin yenidən qiymətləndirilməsi ilə bağlı xərcləri yaranmışdır. Neft Fondunun aktivlərini xarici valyuta aktivləri və ya xarici valyutada ifadə edilmiş investisiya vasitələri təşkil etdiyindən, eyni zamanda Fondun vəsaiti diversifikasiya olunaraq ABŞ dolları, AVRO, İngiltərə funt sterlinqi və digər valyutalarda yerləşdirildiyindən, digər tərəfdən Fondun balansı Azərbaycan manatında tərtib edildiyi üçün il ərzində xarici valyutaların mübadilə məzənnələrinin dəyişməsi, eləcə də xarici valyutalara nisbətdə Azərbaycan manatının dəyişərək, möhkəmlənməsi ilə əlaqədar olaraq Fondun aktivlərinin (Azərbaycan manatı ilə ifadə edilməklə) yenidən qiymətləndirilməsi zamanı Neft Fondu yuxarıda göstərilən əlavə balans xərclərinə məruz qalmışdır. Mühasibat uçotu qaydalarına uyğun olaraq bu xərclər Fondun balansında öz əksini tapır və nəticədə Fondun Azərbaycan manatında ifadə olunan valyuta aktivlərinin dəyəri azalır, halbuki xarici valyuta aktivlərinin alıcılıq qabiliyyəti itmir.

2005-ci ildə eyni zamanda dövlət büdcəsinə 17 451,2 milyon AZM (3 490,2 min AZN) mənfəət vergisi və digər vergilər ödənilmişdir.







# Neft Fondunun İdarəetmə Sistemi

Dövlət Neft Fondunun fəaliyyətinə nəzarət dövlət orqanlarının və ictimai təşkilatların nümayəndələrindən təşkil edilmiş Müşahidə Şurası tərəfindən həyata keçirilir. Hesabat ilində Müşahidə Şurası tərəfindən bir neçə iclas keçirilmişdir. 2005-ci il yanvarın 5-də keçirilmiş iclasında Şura tərəfindən Neft Fondunun 2005-ci il üçün büdcə layihəsinə baxılmış, Fondun investisiya portfelinə daxil olan vəsaitin valyuta tərkibinin təmin edilməsi, vergi statusu ilə bağlı məsələlər müzakirə olunmuşdur. Bu iclasda Müşahidə Şurası tərəfindən Neft Fondunun 2005-ci il büdcə layihəsi, o cümlədən Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (investisiya siyasəti daxil olmaqla) və Neft Fondunun idarə edilməsi ilə bağlı illik xərclər smetasının layihələri məqbul hesab edildi və təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tövsiyə edildi. Eyni zamanda Müşahidə Şurası tərəfindən Neft Fondunun valyuta aktivlərinin yenidən qiymətləndirilməsi (məzənnə fərqi) ilə bağlı xərclərin fakt üzrə büdcədənkənar xərclər kimi nəzərə alınması məqsədəuyğun hesab edilmiş və bu məqsədlə Fondun qanunverici aktlarında müvafiq dəyişikliklərin edilməsi tövsiyə edilmiş, həmçinin Neft Fondunun investisiya portfelinin valyuta strukturu ilə bağlı fikir mübadiləsi aparılmış və yekunda Fondun investisiya portfelinə daxil olan valyuta tərkibinə dair müvafiq qərar qəbul edilmişdir.

Müşahidə Şurasının növbəti 2005-ci il 19 noyabr tarixli iclasında Neft Fondunun 2005-ci ildə maliyyə fəaliyyəti və büdcəsinin icrası ilə bağlı illik hesabatlara baxıldı və Neft Fondunun 2004-cü ildə maliyyə fəaliyyəti haqqında müstəqil auditorun ("Ernst ənd Yanq" şirkətinin) rəyi də nəzərə alınaraq, Fondun 2004-cü ildə fəaliyyəti haqqında illik hesabat məqbul hesab edildi, Dövlət Neft Fondunun 2004-cü il büdcəsinin icrası təsdiq olunmaq üçün Azərbaycan Respublikası Prezidentinə təqdim olunması tövsiyə edilmişdir. Bu iclasda eyni zamanda Müşahidə Şurası tərəfindən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri Layihəsinin tikintisi ilə bağlı xərclərin artmasını və Azərbaycan Respublikasının bu layihədəki iştirak payının Dövlət Neft Fondu tərəfindən maliyyələşdirildiyi nəzərə alınaraq, Dövlət Neft Fondunun 2005-ci il üzrə büdcə xərclərinin artırılması və Fondun 2005-ci il üçün büdcəsində müvafiq dəyişikliklərin təsdiq edilmək üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tövsiyə edildi. İclasda eyni zamanda Müşahidə Şurası tərəfindən Neft Fondunun 2006-cı il büdcə layihəsi, o cümlədən Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri (investisiya siyasəti daxil olmaqla) və Neft Fondunun idarə edilməsi ilə bağlı illik xərclər smetasının layihələri məqbul hesab edildi və təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tövsiyə edildi.

Hesabat ilində Fonddaxili strukturlar arasında səlahiyyətlərin bölgüsü işi təkmilləşdirilmiş, icra intizamı daha da gücləndirilmiş, daxili intizam təmin edilmişdir. Neft Fondunun büdcə qanunvericiliyinə uyğun olaraq Fondun 2005-ci il büdcəsinin icrası təmin edilmişdir.

2005-ci ildə Neft Fondunun bütün idarəetmə strukturlarının səlahiyyətləri qanunvericiliklə nəzərdə tutulmuş qaydada icra olunmuşdur.







## Dövlət Neft Fondunun İnstitusional Quruculuğunun Təkmilləşdirilməsi

2005-ci ildə Dövlət Neft Fondunun qanunverici və normativ bazasının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Neft Fondunun fəaliyyətini tənzimləyən bəzi qanunvericilik aktlarında dəyişikliklərin edilməsi haqqında" 01 mart 2005-ci il tarixli 202 saylı Fərmanı ilə Dövlət Neft Fondunun bir sıra qanunverici sənədlərində dəyişikliklər edilmişdir. Bu Fərmanla Fondun fəaliyyətini tənzimləyən aşağıdakı normativ aktlara əlavə və dəyişikliklər edilmişdir:

- "Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 dekabr tarixli 240 nömrəli Fərmanına;
- Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında" Əsasnaməyə;
- Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 511 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında" Qaydalara;
- Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 12 sentyabr tarixli 579 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydalarına".

Yuxarıda qeyd olunan sənədlərə edilmiş dəyişikliklərə əsasən Fondun formalaşması mənbələrinin təsnifatı genişləndirilmiş, Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi qaydaları təkmilləşdirilmiş, o cümlədən Fondun valyuta vəsaitinin diversifikasiya olunması siyasətinin həyata keçirilməsi məqsədilə Neft Fondunun investisiya portfelinin hər valyuta tərkibi üzrə xüsusi çəki nisbətlərinin tənzimlənməsinə dair normativ mexanizm müəyyən edilmişdir. Eyni zamanda yeni dəyişikliklərə əsasən Fondun illik büdcə xərclərinin gəlirləri üstələməməsi ilə bağlı prinsip aradan qaldırılmışdır.







# Neft Fondunun Beynəlxalq Əlaqələri

2005-ci ildə Neft Fondunun beynəlxalq əlaqələri daha da inkişaf etdirilmiş və bu baxımdan ötən il keçirilən görüşlər, işgüzar səfərlər, təqdimatlarla zəngin olmuşdur. Neft Fondunun valyuta vəsaitlərinin idarə edilməsi sahəsində Fondun müxtəlif beynəlxalq maliyyə-bank qurumları ilə əməkdaşlığı daim genişlənir və bu təşkilatlarla əlaqələrin qurulması və işgüzar münasibətlərin tənzimlənməsi Fondun fəaliyyətinin prioritet istiqamətlərindən birini təşkil edir.

ARDNF-ə oxşar funksiya və məqsədləri yerinə yetirən maliyyə təsisatları ilə işgüzar əlaqələrin qurulması və bu təşkilatların təcrübəsinin öyrənilməsi istiqamətində də 2005-ci ildə mühüm əhəmiyyətli tədbirlər və səfərlər həyata keçirilmişdir. Bu istiqamətdə vacib tədbir kimi ABŞ Ticarət və İnkişaf Agentliyi tərəfindən maliyyələşdirilən "Neft Fondunun İnstitusional Quruculuğunun Təkmilləşdirilməsi" layihəsi çərçivəsində və bu layihəni tətbiq edən ixtisaslaşmış Overture Financial Services LLC şirkətinin dəvəti ilə başda Dövlət Neft Fondunun İcraçı Direktoru Samir Şərifov olmaqla, Fondun nümayəndə heyətinin ABŞ-ın Alyaska Fonduna səfərini qeyd etmək olar. Bu səfər zamanı ARDNF-in və Alyaska Fondunun tarixi və iş prinsiplərinə dair məlumat mübadiləsi aparılmış, Alyaska Fondunun müxtəlif strukturlarının iş təcrübəsi öyrənilmişdir.

2005-ci ildə Neft Fondu tərəfindən Fondun valyuta vəsaitlərinin idarə edilməsinə yeni maliyyə təşkilatlarının cəlb edilməsi istiqamətində də müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, Neft Fonduna depozitar xidmət göstərən maliyyə-bank təşkilatının seçilməsi məqsədilə 2005-ci ildə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Neft Fondunda tender proseduru keçirilmişdir. Tenderin əsas məqsədi Fondun vəsaitlərinin saxlanılması, Neft Fonduna və onun vəsaitlərinin idarə edilməsinə cəlb edilmiş xarici menecerlərə alğı-satqı əqdlərinin bağlanması prosesində və onların icrasında yardım, kastodial hesabatlar komplektinin təqdim edilməsi üzrə beynəlxalq kastodial xidmətlər göstərə bilən maliyyə təşkilatının seçilməsi olmuşdur. ABŞ-ın The Bank of New York bankı tenderin qalibi elan edilmişdir.

2005-ci ildə eyni zamanda Dövlət Neft Fonduna xarici sərmayədarlar tərəfindən aktivlərin verilməsi işinin təkmilləşdirilməsini, neft və qaz gəlirlərinin proqnozlaşdırılması ilə bağlı və digər vacib məsələləri müzakirə etmək məqsədilə Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici neft şirkətləri və xüsusilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini yaratmış konsorsiuma daxil olan şirkətlərin nümayəndələri ilə çoxsaylı görüşlər keçirilmişdir.

2005-ci ildə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinin tikintisinin yekun mərhələyə çatdığını nəzərə alaraq, bu layihənin maliyyələşdirilməsi məsələlərinin müzakirə edilməsi ilə bağlı beynəlxalq maliyyə-bank qurumlarının nümayəndələri ilə çoxlu sayda görüşlər keçirilmiş, Dövlət Neft Fondunun rəhbərliyi sponsorlar qrupu ilə danışıqların aparılması məqsədilə hökumət nümayəndə heyətlərinin tərkibində Böyük Britaniyaya işgüzar səfərlər etmişdir.





**Mineral Ehtiyatların Hasilatı Sənayesində Şəffaflıq Təşəbbüsünün reallaşdırılması istiqamətində nailiyyətlər.**

2005-ci ildə "Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü" (MHŞT) ilə bağlı tədbirlər çərçivəsində Azərbaycan mühüm irəliləyişlərə nail olmuşdur. Hesabat ilində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 noyabr 2003-cü il tarixli Sərəncamı ilə yaradılmış və Dövlət Neft Fondunun İcraçı Direktorunun sədrlik etdiyi MHŞT üzrə Komissiya tərəfindən Azərbaycan Respublikası hökumətinin mədən hasilatı sənayesində əldə etdiyi məcmu daxilolmalar barədə hesabatlar və beynəlxalq auditor şirkətinin bu hesabatlara dair rəyləri açıqlanmışdır.

Şəffaflıq Təşəbbüsü üzrə ilk hesabatlar 2003-cü ili və 2004-cü ilin birinci yarım ilini əhatə etmişdir. Bu dövrlər üzrə hesabatlar beynəlxalq nüfuza malik Deloyt ənd Tuş şirkəti tərəfindən yoxlanılaraq tutuşdurulmuşdur.

Növbəti – ikinci mərhələdə Şəffaflıq Təşəbbüsü üzrə dərc edilmiş hesabatlar 2004-cü ili əhatə etmişdir. Bu dövr üzrə hesabatlar da beynəlxalq nüfuza malik Deloyt ənd Tuş şirkəti tərəfindən yoxlanılaraq tutuşdurulmuşdur.

Üçüncü mərhələdə dərc edilmiş hesabatlar 2005-ci ilın birinci yarısını əhatə etmiş və bu dövr üzrə hesabatlar AGN MAK şirkəti tərəfindən yoxlanılaraq tutuşdurulmuşdur. Azərbaycan Respublikası Hökumətinin mədən hasilatı sənayesində əldə etdiyi məcmu daxilolmaları barədə hesabatlar, eləcə də audit şirkətlərinin rəyləri Dövlət Neft Fondunun (www.oilfund.az), habelə MHŞT üzrə Katiblik funksiyalarını yerinə yetirən Böyük Britaniyanın Beynəlxalq İnkişaf Nazirliyinin (www.eitransparency.org/implementation.htm) və QHT-lərin təmsil olunduğu Mədən Hasilatında Şəffaflığın Artırılması Koalisiyasının (www.eiti-az.org) İnternet səhifələrində yerləşdirilmişdir.

Dərc olunmuş hesabatlar Şəffaflıq Təşəbbüsü çərçivəsində hökumət tərəfindən hazırlanmış mineral ehtiyatların hasilatı üzrə sənaye sahələrindən məcmu gəlirlər barədə dünyada ilk hesabatlar olmaqla bərabər, Azərbaycan hökumətinin Təşəbbüslə bağlı üzərinə götürdüyü öhdəlikləri tam yerinə yetirdiyini təsdiq etmişdir və bu hadisə beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmişdir. Belə ki, 2005-ci il martın 17-də Böyük Britaniyanın London şəhərində "Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbusu" mövzusu ilə və 40-a qədər ölkənin nümayəndələrinin, dövlətlərarası maliyyə təşkilatlarının, o cümlədən Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun, Avropa Yenidənqurma və İnkişaf Bankının, nüfuzlu qeyri-hökumət təşkilatlarının, mineral ehtiyatların hasilatı sahəsində fəaliyyət göstərən beynəlxalq transmilli şirkətlərin rəhbərlərinin iştirak etdiyi Şəffaflıq Təşəbbüsü üzrə ikinci beynəlxalq konfransda Azərbaycanın bu tədbir üzrə pilot ölkə olaraq səyləri və əldə etdiyi nailiyyətləri xüsusi vurğulanmışdır.

Şəffaflıq Təşəbbüsünün həyata keçirilməsi istiqamətindəki Azərbaycanın irəliləyişləri və real nəticələr digər ölkələr üçün nümunəyə çevrilib və sevindirici haldır ki, bu təcrübədən öz ölkələrində tətbiqini təmin etmək məqsədi ilə artıq bir sıra dövlətlər tərəfindən Təşəbbüsə dair təlimatlandırma ilə bağlı Azərbaycan hökumətinə müraciətlər daxil olmuş və bu səpkidə ilk müraciət Şəffaflıq Təşəbbüsü çərçivəsində Azərbaycanın təcrübəsindən istifadə etmək qərarına gəlmiş Qazaxıstan dövləti tərəfindən edilmişdir. Bu müraciətə cavab olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən və Qazaxıstan hökumətinin dəvəti ilə 2005-ci ildə MHŞT üzrə Komissiyanın sədri, Dövlət Neft Fondunun İcraçi Direktoru cənab Samir Şərifov Qazaxıstanda səfərdə olmuş və bu səfər şərçivəsində Şəffaflıq Təşəbbüsü üzrə Azərbaycanın topladığı təcrübəni

Qazaxıstan dövlətinin rəsmiləri ilə bölüşmüş, yüksəkvəzifəli dövlət məmurlarına konsultativ kömək göstərmişdir.

Sözügedən beynəlxalq tədbir üzrə digər mühüm nailiyyət kimi, Şəffaflıq Təşəbbüsü üzrə Beynəlxalq Məsləhətçi Qrupda Azərbaycanın təmsil olunmasını qeyd etmək olar. MHŞT üzrə 2-ci Beynəlxalq Konfransda bu beynəlxalq tədbirə qoşulmuş ölkələrə köməklik göstərmək və Təşəbbüsə yeni ölkələrin qoşulmasını təmin etmək məqsədilə Beynəlxalq Məsləhətçi Qrupun (BMQ) yaradılması qərara alınmış və bu qrupda Azərbaycanın üzvlüyü təsdiq olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin göstərişinə uyğun olaraq, Azərbaycanı bu qrupda MHŞT üzrə hökumət Komissiyasının sədri təmsil edir. Hesabat ilində Londonda və Vaşinqtonda qrupun iki iclası, 2006-cı ilin fevral ayında isə Nigeriyada bir iclası keçirilmişdir.







# İnsan Resurslarının İnkişafı

Hər il olduğu kimi, 2005-ci ildə də Neft Fondunun mövcud kadr potensialının inkişaf etdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

Hesabat ilində Neft Fondunun aidiyyəti bölmələrinin işçiləri Fondun əməkdaşlıq etdiyi investisiya banklarının təşkil etdiyi bir neçə tədris seminarına və kurslara qatılmışlar. Qeyd olunan seminar və kurslarda iştirak etməklə Fondun əməkdaşları maliyyə bazarları, idarəetmə riskləri haqqında biliklərə yiyələnmişlər.

2005-ci ildə Neft Fondunun işçi heyətinin ixtisaslaşma səviyyəsinin artırılmasına xidmət etmiş daha bir tədbirə Fondun aidiyyəti bölmələrinin əməkdaşlarının ABŞ-ın Alyaska Fonduna səfərini aid etmək olar. Hesabatın "Neft Fondunun beynəlxalq əlaqələri" bölməsində qeyd olunduğu kimi, ötən ildə ABŞ Ticarət və İnkişaf Agentliyi tərəfindən maliyyələşdirilən "Neft Fondunun İnstitusional Quruculuğunun Təkmilləşdirilməsi" layihəsi çərçivəsində və bu layihəni tətbiq edən ixtisaslaşmış Overture Financial Services LLC şirkətinin dəvəti ilə başda Dövlət Neft Fondunun İcraçı Direktoru Samir Şərifov olmaqla, Fondun nümayəndə heyəti ABŞ-ın Alyaska ştatında fəaliyyət göstərən Alyaska Fondunda olmuş və burada fondun iş prinsipləri, onun müxtəlif strukturları barədə məlumata yiyələnmiş, iş təcrübəsi öyrənilmişdir.





# Hesabat Sistemi

Milli Neft Strategiyasının reallaşması çərçivəsində Dövlət Neft Fonduna daxil olan vəsaitlərin həcminin durmadan və sürətlə çoxalması, digər tərəfdən ölkə iqtisadiyyatına daxili mənbələr hesabına investisiyaların həyata keçirilməsində Neft Fondunun rolunun hər il daha da artması şəraitində Fondun fəaliyyəti daim ölkədaxili ictimaiyyətin və beynəlxalq qurumların diqqət mərkəzində olur. Bununla əlaqədar Neft Fondunun fəaliyyəti ilə bağlı hesabatların ictimaiyyətə təqdim edilməsi və bu sahədə şəffaflığın artırılması işinə xüsusi önəm verilir.

Hər il olduğu kimi, hesabat ilində də Neft Fondunun fəaliyyətində şəffaflığın təmin edilməsi ilk növbədə Fondun maliyyə fəaliyyəti haqqında hesabatının müstəqil auditor tərəfindən yoxlanılması vasitəsilə həyata keçirilmişdir. Neft Fondunun 2005-ci il üzrə maliyyə fəaliyyətinin auditi "Ernst ənd Yanq" şirkəti tərəfindən həyata keçirilmişdir. Belə ki, Neft Fondunun 2004, 2005, 2006-cı illər üzrə (hər bir il üzrə ayrılıqda olmaq şərti ilə) maliyyə fəaliyyətinin auditini keçirmək məqsədi ilə Azərbaycan Respublikasının dövlət satınalmaları haqqında qanunvericiliyinə uyğun olaraq xidmət təkliflərinin cəlb olunması üsulu ilə 2003-cü ildə Dövlət Neft Fondunda birdəfəlik müsabiqə proseduru keçirilmişdir. Xidmət təklifləri sorğusuna əsasən, Azərbaycan Respublikasında fəaliyyət göstərən nüfuzlu beynəlxalq auditor təşkilatları tərəfindən təqdim olunmuş təkliflərin qiymətləndirilməsi nəticəsində ən münasib təklif vermiş "Ernst ənd Yanq" şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyi müsabiqənin qalibi müəyyən edilmiş və Dövlət Neft Fondu haqqında Əsasnaməyə və Azərbaycan Respublikası Prezidentinin 06 yanvar 2005-ci il tarixli razılığına uyğun olaraq bu şirkət Fondun 2004, 2005, 2006-cı illər üzrə maliyyə fəaliyyətinin auditini keçirmək üçün auditor təyin edilmişdir.

Eyni zamanda Dövlət Neft Fondunun fəaliyyəti ilə bağlı rüblük hesabatlar, Fondun Müşahidə Şurasının qərarları barədə, habelə Fondla bağlı digər məlumat və yeniliklər mətbuatda və Fondun İnternet səhifəsində mütəmadi olaraq dərc etdirilmişdir.

2005-ci ildə Neft Fondunun İnternet saytında *(www.oilfund.az)* Fondun fəaliyyətinin müxtəlif istiqamətlərinə dair məlumatlar, gəlir və xərcləri barədə press-relizlər Azərbaycan və ingilis dillərində yerləşdirilmişdir. Bu saytda eyni zamanda Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) çərçivəsində MHŞT üzrə Komissiya tərəfindən Azərbaycan Respublikası hökumətinin mədən hasilatı sənayesində əldə etdiyi məcmu daxilolmalar barədə hesabatlar və beynəlxalq auditor şirkətinin bu hesabatlara dair verdikləri rəylər açıqlanmış, keçirilmiş görüş və səfərlərə dair məlumat və yeniliklər əks etdirilmişdir.

Fondun fəaliyyəti barədə, habelə Şəffaflıq Təşəbbüsü çərçivəsində görülən işlər haqqında ictimaiyyətə dəqiq məlumatların çatdırılması məqsədi ilə hesabat ilində media nümayəndələri üçün bir neçə mətbuat konfransı təşkil edilmişdir.





# Dövlət Neft Fondunun 2005-ci ildə Maliyyə Fəaliyyəti Haqqında Hesabatına dair Auditor Şirkətinin Rəyi

ERNST & YOUNG

Ernst & Young Holdings (CIS) B.V.
Hyatt International Centre
Hyatt Tower III, 1st Floor
Izmir Street, 1033
Baku, AZ1065, Azerbaijan
Phone: 994 (12) 490-7020
Fax: 994 (12) 490-7017
www.ey.com/azerbaijan

Ernst & Yang Holdinqs (SiAyEs) Bi. Vi.
Hyatt İnternaşnl Senter
Hyatt Tauer III, 1-ci Mərtəbə
İzmir küçəsi, 1033
Bakı, AZ1065, Azərbaycan
Tel: 994 (12) 490-7020
Faks: 994 (12) 490-7017

## Müstəqil Auditorların Rəyi

Azərbaycan Resrublikası Dövlət Neft Fonduna

Biz Azərbaycan Resrublikası Dövlət Neft Fondunun (''Fond'') bu rəyə əlavə edilmiş 31 dekabr 2005-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatının və həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələri, xalis aktivlərdə dəyişikliklər və nağd vəsaitlərin axını haqqında müvafiq hesabatlarının audit yoxlamasını keçirdik. Maliyyə hesabatlarının hazırlanması üçün Fondun rəhbərliyi məsuliyyət daşıyır. Bizim vəzifəmiz arardığımız audit yoxlaması əsasında maliyyə hesabatları üzrə rəy ifadə etməkdir.

Audit yoxlaması Beynəlxalq Audit Standartlarına uyğun surətdə ararılıb. Bu standartlara uyğun olaraq, bizdən auditin rlanlaşdırılmasını və ararılmasını maliyyə hesabatlarında əsaslı təhriflərə yol verilmədiyinə əmin olacaq tərzdə həyata keçirmək tələb edilir. Audit yoxlamasına maliyyə sənədlərində göstərilən rəqəmləri və açıqlamaları təsdiq edən faktların seçmə əsasında təftiş edilməsi daxildir. Audit yoxlaması həmçinin istifadə edilmiş mühasibat rrinsirlərinin və rəhbərliyin verdiyi mühüm rroqnozların, eləcə də hesabatın ümumiyyətlə təqdim edilməsinin qiymətləndirilməsini nəzərdə tutur. Nesab edirik ki, arardığımız audit yoxlaması bizə öz rəyimizi ifadə etmək üçün kifayət qədər əsas verir.

Fikrimizcə, yuxarıda göstərilən maliyyə hesabatları Fondun 31 dekabr 2005-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və nağd vəsaitlərin axınını Dövlət Sektorunda Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun olaraq, bütün mühüm asrektlər üzrə düzgün əks etdirir.

Ernst & Young Holdings (CIS) B.V.

10 arrel 2006-cı il





## Maliyyə Hesabatları

### Maliyyə Vəziyyəti haqqında Hesabat

*(Başqa cür qeyd edilmədiyi halda məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilmişdir)*

| | Qeyd | 31 dekabr, 2005-ci il | 31 dekabr, 2004-cü il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Cari aktivlər** | | | |
| Nağd vəsaitlər və onların ekvivalentləri | *3* | **3 837 208** | 2 360 251 |
| Fərdi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə hesablanmış qiymətli kağızlar | *4* | **2 520 278** | 2 346 625 |
| Alınmalı faizlər | | **46 393** | 20 205 |
| Fonda daxil olmalı vəsaitlər | | **6 397** | 12 492 |
| Avans ödənişləri və cari aktivlər | | **3 425** | – |
| Digər cari aktivlər | | **5** | 15 |
| **Cəmi cari aktivlər** | | **6 413 706** | 4 739 588 |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əsas vəsaitlər, (xalis) | *6* | **10 073** | 10 635 |
| Qeyri-maddi aktivlər, (xalis) | | **351** | 199 |
| Digər aktivlər | | **532** | 964 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **10 956** | 11 798 |
| **Cəmi Aktivlər** | | **6 424 662** | 4 751 386 |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Cari öhdəliklər** | | | |
| Dövlət Büdcəsinə ödəniləcək məbləğlər | | **–** | 15 832 |
| Digər cari öhdəliklər | | **1 590** | 812 |
| **Cəmi Öhdəliklər** | | **1 590** | 16 644 |
| **Xalis Aktivlər** | | **6 423 072** | 4 734 742 |
| **XALİS AKTİVLƏR / KAPİTAL** | | | |
| Kapital qoyuluşu | | **6 291 820** | 4 294 713 |
| Yığılmış əlavə vəsait | | **131 252** | 440 029 |
| **Cəmi Xalis Aktivlər / Kapital** | | **6 423 072** | 4 734 742 |

*Maliyyə hesabatları ilə bağlı əlavə edilən qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir.*

## Maliyyə Nəticələri haqqında Hesabat

*(Başqa cür qeyd edilmədiyi halda məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilmişdir)*

| | *Qeyd* | 31 dekabr tarixində tamamlanan il 2005-ci il | 2004-cü il |
|---|---|---|---|
| **Əməliyyat gəliri** | | | |
| Faiz gəliri | | **178 801** | 118 811 |
| Pul bazarı fondlarından əldə edilmiş gəlir | | **18 733** | 15 870 |
| Xalis dilinq zərərləri | | **(57 958)** | (42 922) |
| **Cəmi əməliyyat gəliri** | | **139 576** | 91 759 |
| **Əməliyyat xərcləri** | | | |
| Əmək haqqı, məvaciblər və işçilərə müavinətlər | | **1 164** | 647 |
| Köhnəlmə / amortizasiya | | **706** | 1 250 |
| Bank komisyon haqları | | **566** | 701 |
| Kommunikasiya xərcləri | | **556** | 298 |
| Ezamiyyət xərcləri | | **453** | 248 |
| Peşəkar xidmətlər | | **304** | 435 |
| Nəşriyyat haqları | | **37** | 30 |
| Digər əməliyyat xərcləri | | **1 075** | 658 |
| Məzənnə fərqindən yaranan zərər | | **443 492** | 13 258 |
| Qiymətli kağızların məcburi əvəz etdirilməsindən zərərlər | | **–** | 16 224 |
| **Cəmi əməliyyat xərcləri** | | **448 353** | 33 749 |
| **Vergilərdən əvvəl əldə edilmiş (kəsir) / əlavə vəsait** | | **(308 777)** | 58 010 |
| **Mənfəət vergisi** | *7* | **–** | 23 082 |
| **İl üzrə əldə edilmiş xalis (kəsir) / əlavə vəsait** | | **(308 777)** | 34 928 |

*Maliyyə hesabatları ilə bağlı əlavə edilən qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir.*





## Xalis Aktivlərdə Dəyişikliklər haqqında Hesabat

*(Başqa cür qeyd edilmədiyi halda məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilmişdir)*

| | *Qeyd* | Daxil olmuş vəsait / köçürmələr | Yığılmış əlavə vəsait | Cəmi |
|---|---|---|---|---|
| **31 dekabr 2003-cü il tarixinə qalıq** | | 3 563 024 | 405 101 | 3 968 125 |
| Fonda daxil olmuş vəsaitlər | *8* | 1 522 641 | – | 1 522 641 |
| Dövr üzrə əldə edilmiş xalis əlavə vəsait | | – | 34 928 | 34 928 |
| Dövlət Büdcəsinə köçürülmüş vəsaitlər | *9* | (650 000) | – | (650 000) |
| AzBTC ilə əlaqədar köçürülmüş vəsaitlər | *9* | (89 000) | – | (89 000) |
| Dövlət Qaçqınlar Komitəsinə və Məcburi köçkünlərin Sosial İnkişaf Fonduna vəsait köçürmələri | *9* | (51 952) | – | (51 952) |
| **31 dekabr 2004-cü il tarixinə qalıq** | | 4 294 713 | 440 029 | 4 734 742 |
| Fonda daxil olmuş vəsaitlər | *8* | **3 154 055** | **–** | **3 154 055** |
| Dövr üzrə xalis kəsir | | **–** | **(308 777)** | **(308 777)** |
| Dövlət Büdcəsinə köçürülmüş vəsaitlər | *9* | **(750 000)** | **–** | **(750 000)** |
| AzBTC ilə əlaqədar köçürülmüş vəsaitlər | *9* | **(205 000)** | **–** | **(205 000)** |
| Dövlət Qaçqınlar Komitəsinə və Məcburi köçkünlərin Sosial İnkişaf Fonduna vəsait köçürmələri | *9* | **(201 948)** | **–** | **(201 948)** |
| **31 dekabr 2005-ci il tarixinə qalıq** | | **6 291 820** | **131 252** | **6 423 072** |

*Maliyyə hesabatları ilə bağlı əlavə edilən qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir.*

## Nağd Vəsaitlərin axını haqqında Hesabat

*(Başqa cür qeyd edilmədiyi halda məbləğlər milyon Azərbaycan manatı ilə ifadə edilmişdir)*

| | *Qeyd* | 31 dekabr tarixində tamamlanan il 2004-cü il | 2003-cü il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən nağd vəsait axını:** | | | |
| Vergilərdən əvvəl (kəsir) / əlavə vəsait | | **(308 777)** | 58 010 |
| (Kəsir) / əlavə vəsaiti əməliyyat fəaliyyətindən əldə edilmiş xalis nağd vəsaitlə üzləşdirmək məqsədi ilə aparılmış təshihlər: | | | |
| Faiz gəliri | | **(178 801)** | (124 968) |
| Əsas vəsaitlərin / qeyri-maddi aktivlərin köhnəlməsi / amortizasiyası | | **706** | 1 250 |
| Nağd vəsaitlər və onların ekvivalentləri üzrə məzənnə fərqindən yaranan zərər / (mənfəət) | | **197 167** | 3 633 |
| Əsas vəsaitlərin silinməsindən yaranan zərər | | **–** | (34) |
| Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklər: | | | |
| Fərdi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə hesablanmış qiymətli kağızlar | *4, 10* | **(173 653)** | 440 939 |
| Digər cari aktivlər | | **(3 415)** | 269 |
| Digər cari öhdəliklər | | **778** | (1 098) |
| Digər qısamüddətli investisiyalar | | **–** | 307 672 |
| Alınmış faiz | | **152 262** | 125 143 |
| Alınmış dividendlər | | **351** | 577 |
| Ödənilmiş mənfəət vergisi | | **(15 832)** | (40 227) |
| **Əməliyyat fəaliyyətində istifadə edilən xalis nağd vəsaitlər** | | **(329 214)** | (110 712) |
| **İnvestisiya fəaliyyətindən nağd vəsaitlərin axını** | | | |
| Əmlak və avadanlığın alınması | *6* | **(92)** | (576) |
| Qeyri-maddi aktivlərin alınması | | **(204)** | (56) |
| Digər uzunmüddətli aktivlər | | **432** | – |
| **İnvestisiya fəaliyyətində əldə edilmiş / (istifadə edilən) xalis nağd vəsaitlər** | | **136** | (632) |
| **Maliyyə fəaliyyətindən nağd vəsaitlərin axını** | | | |
| Daxil olmuş vəsaitlər | | **3 160 150** | 1 507 530 |
| AzBTC şirkəti üçün Azərbaycan Xəzinədarlığına köçürülmüş vəsaitlər | | **(205 000)** | (94 619) |
| AzBTC şirkəti tərəfindən geri köçürülmüş vəsaitlər | | **–** | 5 619 |
| Dövlət Büdcəsinə vəsait köçürmələri | | **(750 000)** | (650 000) |
| Dövlət Qaçqınlar Komitəsinə və Məcburi köçkünlərin Sosial İnkişaf Fonduna vəsait köçürmələri | | **(201 948)** | (74 952) |
| **Maliyyə fəaliyyətindən əldə edilmiş xalis nağd vəsaitlər** | | **2 003 202** | 693 578 |
| **Nağd vəsaitlər və onların ekvivalentlərinin xalis artması** | | **1 674 124** | 582 234 |
| Məzənnə dəyişikliklərinin nağd vəsaitlərə və onların ekvivalentlərinə təsiri | | **(197 167)** | 3 648 |
| İlin əvvəlinə nağd vəsaitlər və onların ekvivalentləri | *3* | **2 360 251** | 1 781 665 |
| **İlin sonuna nağd vəsaitlər və onların ekvivalentləri** | *3* | **3 837 208** | 2 360 251 |

*Maliyyə hesabatları ilə bağlı əlavə edilən qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir.*





## Maliyyə Hesabatları ilə bağlı qeydlər

### 1. Fond haqqında məlumat

Azərbaycan Respublikasının Dövlət Neft Fondu ("Fond") Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli 240 saylı ''Azərbaycan Respublikasının Dövlət Neft Fondunun Yaradılması haqqında" Fərmanı (Fərman) ilə yaradılmışdır. Fond, neft və qaz ehtiyatlarının kəşfiyyatı və inkişafına dair müqavilələr çərçivəsində gəlirlərin, digər pul axınlarının, habelə Fondun öz fəaliyyəti nəticəsində əldə edilən gəlirlərin toplanması, səmərəli idarə edilməsi və Azərbaycan Respublikası vətəndaşlarının və gələcək nəsillərin rifahı naminə istifadə edilməsi məqsədilə yaradılmışdır.

Fərmana və əsasnaməyə uyğun olaraq, Fond ayrıca hüquqi şəxs kimi təsis edilmiş büdcədənkənar təşkilat olaraq, Azərbaycan Respublikası Prezidenti qarşısında hesabat verir və məsuliyyət daşıyır.

Fondun vəsaiti "Azərbaycan Respublikası Dövlət Neft Fondunun fəaliyyətini tənzimləyən bəzi qanunvericilik aktlarında dəyişikliklərin edilməsi haqqında" 7 fevral 2003-cü il tarixli 849 nömrəli və 1 mart 2005-ci il tarixli 202 nömrəli Fərmanlarına əsasən edilmiş əlavə və dəyişikliklər nəzərə alınmaqla Fondun Əsasnaməsinə, habelə bu Fərmanlarla edilmiş əlavə və dəyişikliklər nəzərə alınmaqla "Fondun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydalarının" 2.3. bəndində göstərilən mənbələrə əsasən formalaşır. Bu normativ sənədlərə əsasən Fondun gəlir və aktivlərinin mənbələri siyahısından aşağıdakılar istisna edilir:

- xarici şirkətlərlə bağlanmış müqavilələr çərçivəsində dövlət əmlakından istifadə üçün icarə haqqı;
- Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) sərmayəçi, iştirakçı və ya saziş bağlayan tərəf olan layihədə ARDNŞ-nin iştirak payı və ya sərmayəsi ilə bağlı karbohidrogen satışından əldə edilən gəlirləri;
- xarici şirkətlərlə birgə fəaliyyət nəticəsində əldə edilən digər gəlirlər.

Fondun Əsasnaməsinə uyğun olaraq Fondun vəsaiti aşağıdakı mənbələr hesabına formalaşır:

a) Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və ya səlahiyyətli dövlət orqanı ilə sərmayəçilər arasında bağlanmış Azərbaycan Respublikasında, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində neftin və qazın kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişlərin, habelə neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və nəqlinə dair digər Sazişlərin həyata keçirilməsindən əldə edilən aşağıdakı gəlirlər:

   i) Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərti ilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla);

   ii) neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən ödənilən bonuslar (mükafatlar);

   iii) karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına ödənilən akrhesabı ödənişlər;

   iv) neft-qaz layihələrinin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının payına düşən dividendlər və mənfəətin bölüşdürülməsindən əldə edilən gəlirlər (Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla);

   v) neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum ixrac boru kəmərləri vasitəsi ilə ötürülməsindən əldə edilən gəlirlər;

vi) neft-qaz sazişləri çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən verilən aktivlərdən əldə edilən gəlirlər.

b) Neft Fondu tərəfindən Fondun vəsaitinin (aktivlərinin) ( o cümlədən, maliyyə aktivlərinin və neft-qaz sazişləri çərçivəsində sərmayəçilərin verdiyi aktivlərinin) yerləşdirilməsindən, idarə olunmasından, satişindan və ya digər təqdim edilməsindən və yaxud satışındankənar əldə edilən gəlirlər, aktivlərinin balans valyutasında (Azərbaycan manatı) yenidən qiymətləndirilməsindən alınan gəlirlər və sair.

c) Qrantlar və digər təmənnasız yardımlar.

d) Azərbaycan qanunvericiliyə uyğun olaraq digər gəlirlər və daxilolmalar.

Fondun Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş Əsasnaməsinə uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və ya Səlahiyyətli Hökumət orqanı yuxarıda göstərilən vəsaitlərin və gəlirlərin yığılmasını və onların Fonda köçürülməsini həyata keçirəcəkdir.

2005-ci və 2004-cü illərdə Fond tanınmış maliyyə qurumları ilə vəsaitlərin saxlanılmasına dair iki və investisiyaların idarə edilməsi haqqında iki imzalanmış sazişi qüvvədə saxlamışdır. Vəsaitlərin saxlanılmasına dair sazişlər əsasında maliyyə qurumları Fondun aldığı qiymətli kağızları saxlayır, investisiyaların idarə edilməsi haqqında sazişlər əsasında isə maliyyə qurumları Fondun qəbul etdiyi ümumi investisiya qaydaları əsasında Fondun vəsaitlərini idarə edir.

Fondun ofisinin qeydiyyatdan keçmiş ünvanı: Bülbül prospekti 20, Bakı şəh., AZ1014 Azərbaycan.

## 2. Mühüm mühasibat uçotu prinsipləri

### *Təqdimatın əsası*

Fondun maliyyə hesabatları Beynəlxalq Mühasiblər Federasiyasının Dövlət Sektoru Komitəsi tərəfindən nəşr olunmuş Dövlət Sektorunda Beynəlxalq Mühasibat Uçotu Standartlarına (DSBMUS) uyğun olaraq hazırlanmışdır. DSBMUS Beynəlxalq Maliyyə Hesabatları Standartlarını (BMHS) dövlət sektoru kontekstinə uyğunlaşdırmaqla tərtib edilmişdir.

BMHS Beynəlxalq Mühasibat Standartları Şurasının (BMSŞ) təsdiq etdiyi standartlardan və izahlardan, eləcə də Beynəlxalq Mühasibat Standartları Komitəsinin təsdiq etdiyi qüvvədə olan BMHS və Daimi Şərhlər Komitəsinin izahlarından ibarət olan standartlar əsasında hazırlanmışdır. Dövlət sektoru dedikdə, dövlət, regional və yerli idarəçilik orqanları və müvafiq hökumət strukturları nəzərdə tutulur.

Fond 31 dekabr 2005-ci və 2004-cü ilədək nəşr olunmuş DSBMUS-nın hər birini tətbiq etməyi qərara almışdır. DSBMUS-nın buna icazə verdiyi kimi, Fond ekvivalent DSBMUS olmadıqda, BMHS-nın müddəalarını tətbiq edir.

Fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə ölçülən investisiyalar və Fondun inzibati binası istisna olmaqla maliyyə hesabatları ilkin dəyər əsasında hazırlanmışdır.

Fond mühasibat uçotunu Azərbaycan manatı (“AZM”) ilə aparır. Fondun aktivlərinin və gəlirlərinin əksəriyyətinin xarici valyuta ilə qeydə alınmasına baxmayaraq, Fond hesabatların tərtibi və əməliyyatlarının ölçülməsi üçün AZM-dən istifadə edir, çünki Fondun bütün xərcləri və ayırmaları AZM ilə həyata keçirilir və qiymətləndirilir və Fondun maliyyə nəticələri AZM ilə ifadə edilmiş illik büdcə ilə müqayisədə qiymətləndirilir.

Dövlət Sektorunda Beynəlxalq Mühasibat Uçotunun 4 saylı “Xarici valyutanın Məzənnəsindəki Dəyişikliklərin Təsiri” standartına uyğun olaraq, xarici valyutada (əsasən ABŞ Dolları) həyata keçirilən əməliyyatlar və qalıqlar AZM ilə yenidən qiymətləndirilmişdir. Gəlir və xərclər ilkin mübadilə məzənnəsinə təqribən bərabər olan orta aylıq mübadilə dərəcəsi nəzərə alınmaqla AZM-ə çevrilir. Kapital və qeyri-pul aktivləri və öhdəlikləri əməliyyat gününə qüvvədə olan ilkin mübadilə məzənnəsi nəzərə alınmaqla AZM-ə çevrilir. Pul aktivləri və öhdəlikləri balans tarixinə qüvvədə olan mübadilə məzənnəsi nəzərə alınmaqla AZM-ə çevrilir. AZM ilə ifadə edilməyən pul aktiv və öhdəliklərinin çevrilməsindən yaranan məzənnə qəliri və zərəri əməliyyatlar üzrə müvafiq surətdə kreditləşdirilir və ya debetləşdirilir.





AZM Azərbaycan Respublikasından kənarda tam sərbəst dönərli valyuta deyildir. Azərbaycan Respublikasının daxilində rəsmi məzənnə gündəlik olaraq Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilir. Bazar məzənnəsi rəsmi məzənnədən fərqli ola bilər, lakin bu fərq adətən Azərbaycan Respublikasının Milli Bankının nəzarət etdiyi çox kiçik parametrlər çərçivəsində olur. 31 dekabr 2005-ci il və 2004-cü il tarixlərinə rəsmi məzənnələr, müvafiq olaraq, 1 ABŞ dolları 4593 AZM-ə və 4903 AZM-ə bərabər olmuşdur.

### *Proqnozlardan istifadə*

Bu maliyyə hesabatlarının hazırlanması rəhbərlikdən hesabatda əks etdirilən aktivlərə, gəlirlərə və xərclərə, daxilolmalara və vəsait ayırmalarına təsir edəcək proqnoz və mülahizələrin verilməsini tələb edir. Rəhbərlik davamlı olaraq öz proqnoz və mülahizələrini, o cümlədən gəlirin və potensial öhtəliklərin tanınması ilə bağlı olanları qiymətləndirir. Rəhbərlik öz proqnozlarını bazar xüsusiyyətlərinin nəzərə alındığı müxtəlif mülahizələr əsasında qurur ki, bunlar da müvafiq şərait daxilində məqsədəuyğun hesab edilir və bunların nəticəsi aktivlərin başqa mənbələrdən əldə edilə bilməyəcək cari dəyəri haqqında mülahizələr formalaşdırmağa əsas yaradır. Faktiki nəticələr hər hansı mülahizələr və şərait çərçivəsində bu proqnozlardan əhəmiyyətli dərəcədə fərqlənə bilər.

### *Maliyyə alətlərinin tanınması*

Maliyyə aktivlərinin alışı və ya satışı hesablaşma gününün mühasibatı ilə qeydə alınır. Hesablaşma günü aktivin Fonda və ya Fond tərəfindən çatdırıldığı bir tarixdir. Hesabatın hesablaşma tarixi üzrə mühasibat a) aktivin fonda köçürüldüyü tarixdən qeydə alınmasına və b) aktivin Fonddan çıxarıldığı tarixdən qeyddən çıxarılmasına aiddir. Fond ticarət tarixindən (aktivlərin alışı və ya satışının Fond tərəfindən həyata keçirildiyi tarix) hesablaşma tarixinədək olan müddət ərzində aktivin real dəyərindəki hər hansı bir dəyişiklik əldə edilmiş aktivin mühasibatda əks olunduğu ilə eyni şəkildə qeydə almalıdır. Real dəyərin dəyişməsi ilkin dəyərlə yaxud amortizasiya edilmiş dəyərlə əks etdirilən aktivlər üçün qeydə alınmır; fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə hesablanmış qiymətli kağızlar üçün saxlanılan aktivlər üzrə xalis mənfəət və ya zərərdə; və satış üçün mövcud olan aktivlər üzrə kapitalda qeydə alınır.

Maliyyə aktivləri və öhdəliklər ilk dəfə maya dəyəri ilə uçota alınırlar. Həmin maya dəyəri əməliyyat xərclərini daxil etməklə (çıxmaqla) verilmiş (alınmış) vəsaitin real dəyərinə bərabər sayılır. Maliyyə aktivlərinin və öhdəliklərinin sonrakı uçotu bu qeyddə əks olunan müvafiq mühasibat uçotu prinsipləri əsasında müzakirə olunur.

### *Nağd vəsaitlər və onların ekvivalentləri*

Nağd vəsaitlər və onların ekvivalentləri kassada olan nağd vəsaitlərdən, ödəmə müddəti maliyyə hesabatlarının tarixindən üç ay ərzində tamamlanan və ya qısamüddətli depozitlər, eləcə də ödəmə müddəti üç ay və ya daha az olan, müəyyən nağd məbləğə çevrilə bilən və dəyərinin dəyişməsi riski cüzi olan yüksək likvidli investisiyalardan ibarətdir. Kassada və banklarda olan nağd vəsaitlər və depozitlər ilkin dəyərə faiz əlavə olunmaqla əks etdirilir.

### *Fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə hesablanmış qiymətli kağızlar*

Fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə hesablanmış qiymətli kağızlara (i) qiymətlərin qısa müddətli dəyişkənliyindən və ya dilerlərin gəlirindən əldə edilən mənfəət məqsədi ilə alınmış qiymətli kağızlar; (ii) birgə idarəolunan və qısa bir müddətdə gəlir əldə etmək qabiliyyətinə malik olmasını doğruldan maliyyə alətləri portfelinin bir hissəsi olan qiymətli kağızlar; (iii) törəmə qiymətli kağızlar; (iv) idarə olunması və gəlirliliyi real bazar dəyəri əsasında müəyyən olunan, habelə Fond tərəfindən ilk dəfə əks olunarkən risklərin idarəolunması və yaxud investisiya üzrə sənədləşdirilmiş strategiyasına uyğun olaraq fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə hesablanmış qiymətli kağızlar daxildir. Fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə heablanmış qiymətli kağızlar ilkin olaraq maliyyə alətlərinə müvafiq olan prinsiplərə əsasən qeydə alınır və sonradan isə balans tarixinə aid olan bazar qiymətlərinə əsasən real dəyərlə yenidən qiymət-

ləndirilir. Fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə hesablanmış qiymətli kağızlar ilə əməliyyatlar nəticəsində realizə olunmuş və realzə olunmamiş gəlirlər və zərərlər xalis dilinq gəlirlərinin zərərlərin bir hissəsi kimi maliyyə nəticələri haqqında hesabatında qeydə alınır. Fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə heablanmış qiymətli kağızlarından qazanılmış gəlir faiz gəliri kimi göstərilir.

Real bazar dəyərin müəyyən edilməsində qiymətli kağızların dəyərləri bazarda mübadilə olunduğu təqdirdə son alış qiyməti istifadə olunur. Bazar qiymətləri mövcud olmadığı və ya Fondun mövqeyinin bağlanılması əsaslı şəkildə bazar qiymətlərinə təsir edəcəyi gözlənildiyi halda, real dəyər digər bazarlarda satınalınan oxşar alətlərin qiymətlərinə, yaxud realizə edilə bilən məbləğin rəhbərlik tərəfindən obyektiv və etibarlı qiymətləndirilməsinə istinadən müəyyən edilir.

1 yanvar 2005-ci il tarixindən etibarən Fond BMUS 39 "Maliyyə Alətləri: Tanınma və Qiymətləndirilmə" (təshih edilmiş) standartı ilk dəfə tətbiq etmişdir. BMUS 39 (təshih edilmiş) standartına uyğun olaraq 25 may 2005-ci il tarixində keçirilmiş İnvestisiya Şurasının iclasına əsasən Fond 1 yanvar 2005-ci il tarixinə 1,687,918 AZM balans dəyərli və ödəmə müddətinədək saxlanılan investisiya portfelini tam olaraq fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə hesablanmış maliyyə aktivləri növünə keçirmişdir. Yenidən təsnifləşdirmə (klassifikasiya), Fondun riskinin idarə edilməsi və investisiya strategiyasına uyğun olaraq, qiymətli kağızların idarə olunması vaxtından etibarən həyata keçirilib və onların qiymətləndirilməsi bazar qiymətlərinə əsasən aparılıb. 31 dekabr 2005-ci il tarixində başa çatan il üçün Fondun vergilərdən əvvəl xalis qalığına yenidən təsnifatın təsiri 33,234 AZM məbləğinə bərabərdir.

### *İnvestisiya qiymətli kağızları*

Fond öz investisiya qiymətli kağızlarını iki kateqoriyaya təsnif edir:

- Müəyyən edilmiş ödəmə müddəti və müəyyən ödəniş tarixi olan və rəhbərliyin ödəmə müddətinin sonuna qədər saxlamaq niyyəti və imkanı olan qiymətli kağızlar ödəmə müddətinin sonuna qədər saxlanılan qiymətli kağızlar kimi təsnif olunur, və
- Fond ödəmə müddətinin sonuna qədər saxlanılan qiymətli kağızlar kateqoriyası və ya fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə heablanmış qiymətli kağızlar kateqoriyası kimi təsnif olunmayan qiymətli kağızları satış üçün mövcud olan qiymətli kağızlara aid edir.

Fond investisiya qiymətli kağızları onların əldə olunması zamanı rəhbərliyin niyyətinə əsasən təsnifatlaşdırır.

Ödəmə müddətinin sonuna qədər saxlanılan investisiya qiymətli kağızları öncə yuxarıda qeyd olunan prinsiplərə uyğun olaraq tanınılır, sonradan isə hər hansı premium və ya diskont faktiki faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyər ilə ölçülür. Aktivlərin dəyərinin azalması ilə əlaqədar olan, ehtiyatlar bütün halları nəzərə alınmaqla hesablanır. Ödəmə müddətinin sonuna qədər saxlanılan qiymətli kağızlar üzrə bütün gəlirlər və zərərlər maliyyə nəticələri haqqında hesabatda qeydə alınır.

### *Maliyyə alətlərinin real dəyəri*

Real dəyər kimi elə məbləğ başa düşülür ki, bu məbləğdə alət cari alqı-satqı əməliyyatlarına və alətə tətbiq oluna bilən xüsusi risklərə əsaslanaraq məcburi və yaxud da ləğvetmə satışı istisna olmaqla, tam məlumatlandırılmış könüllü tərəflər arasında azad şəraitdə mübadilə oluna bilər. Real dəyər müəyyən edilərkən cari iqtisadi şəraitlər və alətə xarakterik olan xüsusi risklər nəzərə alınmalıdır. Burada əks olunmuş qiymətlər Fondun xüsusi bir alətinin tam bazar mübadiləsində satışından əldə edə biləcəyi məbləğlərin göstəricisi deyil.

Fond maliyyə alətlərinin real dəyərinin qiymətləndirilməsində aşağıdakı metod və fərziyyələrdən istifadə edir:

- bir ay ərzində müddəti bitən aktiv və öhdəliklərin balans dəyəri onların müddəti nisbətən qısa olduğundan onların real dəyərinə təxminən bərabərdir.
- daha uzunmüddətli aktiv və öhdəliklərin real dəyərləri müvafiq faiz dərəcələri bazar dərəcələrini əks etdirdiyi üçün onların balans dəyərlərinə təxminən bərabərdir.





### *Əsas vəsaitlər*

Əsas vəsaitlər, Fond tərəfindən əsasən administrativ məqsədlər üçün saxlanılan və bir hesabat dövründən daha çox müddət ərzində istifadə edilməsi nəzərdə tutulan maddi aktivlərdir. İnzibati bina istisna olmaqla Fondun əsas vəsaitləri ilkin dəyərdən yığılmış köhnəlmə çıxıldıqdan sonra alınan məbləğlə əks etdirilir. 31 dekabr 2005-ci və 2004-cü illər tarixinə olan hesabatda, Fondun inzibati binası 3 sentyabr 2004-cü il tarixində müstəqil qiymətləndiricilər tərəfindən müəyyən edilmiş real dəyərdən yığılmış amortizasiyanı çıxmaqla əks etdirilmişdir.

Köhnəlmə hər bir aktivin istismara yararlı olan müddəti ərzində , dəyərin düzxəttli metodla qalıq dəyərə silinənə qədər hesablanır. Müxtəlif qrupda əsas vəsaitlər üçün istismara yararlı olma müddətləri aşagıdakı kimidir:

| | İl |
|---|---|
| Binalar | **50** |
| Nəqliyyat vasitələri | **7** |
| Ofis avadanlığı | **4** |
| Mebel | **5** |
| Digər əsas vəsaitlər | **3** |

Köhnəlmə əsas vəsaitlərin istismara verildiyi aydan başlayır və həmin obyektin silindiyi və ya satıldığı müdddətdə bitir.

### *Xalis aktivlər/Kapital*

Dövlət Büdcəsinə köçürmələr, habelə hökümət idarələri, hökümətə məxsus müəssisə və şirkətlərə köçürmələr Azərbaycan Respublikasının "2005-ci il Dövlət büdcəsi haqqında" 789-IIQ nömrəli 3 dekabr 2004-cü il tarixli Qanununa, "Azərbaycan Respublikası Prezidentinin Dövlət Neft Fondunun 2005-ci il büdcəsi barədə" 01 mart 2005-ci il tarixli 201 nömrəli Fərmana, Fondun 2005- ci il büdcəsinin icrası ilə bağlı bəzi tədbirlər haqqında 01 mart 2005-ci il 652 nömrəli Sərəncama, "2005-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 21 iyun 2005-ci il tarixli 941-IIQD nömrəli Qanununa, "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2005-ci il büdcəsində dəyişikliklərin edilməsi haqqında" 28 dekabr 2005-ci il tarixli 347 nömrəli Fərmana əsasən həyata keçirilir. Bu köçürmələr ödəmə tarixində Fond tərəfindən fakt üzrə Hökümətə və hökümət tərəfindən idarə olunan idarələrə ödənişin real dəyəri kimi tanınır.

Bütün köçürmələr, Fondun təsdiq olunmuş büdcəsi çərçivəsində həyata keçirilir və büdcə ilə nəzərdə tutulmuş müvafiq benefisiarlara (hökümət idarələri, hökümətə məxsus müəssisə və şirkətlər) təqdim etdikləri sifariş məktublarının əsasında ödənilmək üçün Dövlət Xəzinədarlığına köçürülür.

Dövlət büdcəsinə transfertlər Azərbaycan Respublikası Maliyyə Nazirlyi ilə razılaşdırılmış cədvələ uyğun olaraq həyata keçirilir və Fond tərəfindən faktiki köçürüldükdə tanınır.

Qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması tədbirlərinin maliyyələşdirilməsi üçün ayrılan vəsaitlər Fond tərəfindən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, habelə Nazirlər Kabineti yanında Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun müvafiq qaydada əsaslandırılmış sifarişləri əsasında ödənilir və Fondun rəhbərliyi təfindən imzalandıqdan sonra tanınır.

Fond, Heydər Əliyev adına BTC əsas ixrac boru kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi ilə əlaqədar Azərbaycan BTC Limited ("AzBTC") Şirkətinə çatacaq vəsait, Fondun təstiqlənmiş Büdcə çərçivəsində, bu şirkətdən ödənişlər üçün sifariş alındıqdan sonra həyata keçirilir.

Azərbaycan Respublikasının payına düşən xam neftin və qazın satışından əldə edilən xalis gəlir, ARDNŞ Fonda köçürülməli məbləğlər barədə məlumat verdikdə, Fonda daxilolmalar kimi tanınır.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ("ABƏŞ") tərəfindən boru kəməri tranzit tarifləri üzrə ödənişlər ödəmənin vaxtı çatdıqda uçota alınır.

Xarici şirkətlərin ödədiyi bonus və akrhesabı ödənişlər bu cür ödənişlər ARDNŞ və Fond tərəfindən alındığı zaman uçotda əks etdirilir.

Prezident Fərmanlarına uyğun olaraq xitamvermə və konsessiya sahəsindən imtina edilməsi ilə bağlı ödənişlər, eləcə də quruda hasilatın pay bölgüsü üzrə sazişlər çərçivəsində yerli bazar neftinin satışından ARDNŞ-ın aldığı xalis gəlir Fondun aktivlərinə daxil edilmir.

Yuxarıda göstərilən köçürmə və ödənişlər 1 saylı DSBMUS "Maliyyə Hesabatları Təqdimatı"na uyğun olaraq Fondun kapitalında əks edilir.

***Gəlir və xərclərin əks etdirilməsi***

Gəlir Fond tərəfindən iqtisadi fayda əldə ediləcəyi və gəlirin etibarlı şəkildə ölçülməsi ehtimalı olduğu halda qeydə alınır. Faiz gəliri hesablama metodu ilə əks etdirilir.

Xərclər hesablama metodu ilə əks etdirilir.

***Mənfəət vergisi***

Fond 1 yanvar 2003-cü il tarixindən vergi ödəyicisi olmuşdur.

Müddəti uzadılmış mənfəət vergisi, öhdəlik metodundan istifadə etməklə, maliyyə hesabatların məqsədləri üçün aktivlərin və öhdəliklərin vergi bazası ilə balans dəyərləri arasında balans tarixinə mövcud olan bütün müvəqqəti fərqlər üzrə müəyyən edilir.

Müddəti uzadılmış vergi öhdəlikləri vergiyə cəlb edilən bütün müvəqqəti fərqlər üçün müəyyən edilir. Müddəti uzadılmış vergi aktivləri bütün çıxılan müvəqqəti fərqlər, istifadə edilməmiş vergi aktivləri və istifadə edilməmiş vergi öhdəliklərinin gələcəyə keçirilməsi üçün elə bir dərəcədə müəyyən edilir ki, çıxılan müvəqqəti fərqlərin, istifadə edilməmiş vergi aktivləri və istifadə edilməmiş vergi öhdəliklərinin gələcəyə keçirilməsinin istifadə edilə bildiyi vergiyə cəlb edilən mənfəətin mövcud olması ehtimalı olsun.

Müddəti uzadılmış aktivlərin balans dəyəri hər bir balans tarixində nəzərdən keçirilir və müddəti uzadılmış mənfəət vergisi aktivlərinin hamısının və ya bir hissəsinin istifadə edilməsi üçün kifayət qədər vergiyə cəlb edilən mənfəətin mövcudluğu ehtimalı olmadığı hala qədər azaldılır.

Müddəti uzadılmış mənfəət vergisi aktivləri və passivləri, balans tarixinə qüvvədə olan və ya əsas etibarı ilə qüvvədə olan vergi dərəcələri və vergi qanunları əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilməsi gözlənilən vergi dərəcələri ilə ölçülür.

***Dövlət Sosial Müdafiə Fondu***

Fond öz işçiləri üçün Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna köçürmələr həyata keçirir.

***Yenidən təsnif etmə***

Yuxarıda qeyd olunduğu kimi Fond 1 yanvar 2005-ci il tarixindən etibarən ödəmə müddətinin sonuna qədər saxlanılan investisiya portfelində olan 1,687,918 AZM məbləğində bütün qiymətli kağızları tam olaraq, fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə heablanmış qiymətli kağızlar növünə keçirmişdir. 31 dekabr 2005-ci il tarixində başa çatan il üçün Fondun vergilərdən əvvəl xalis qalığına yenidən təsnifatın təsiri 33,234 AZM məbləğinə bərabərdir.

**3. Nağd vəsaitlər və onların ekvivalentləri**

31 dekabr tarixinə nağd vəsaitlər və onların ekvivalentləri aşağıdakılardan ibarət olmuşdur:

| | 2005 | 2004 |
|---|---|---|
| Depozitlər | **2 395 891** | 1 491 228 |
| Pul bazarı fondları | **1 361 840** | 717 919 |
| Bank hesabları | **79 477** | 151 104 |
| | **3 837 208** | **2 360 251** |



*Depozitlər*

31 dekabr 2005-ci il tarixinə Fond A-dan AA-ya qədər ( Standard & Poors) dəyişən kredit reytinqlərinə malik olan müxtəlif Avropa banklarında yerləşdirilən və müddəti 2006-cı ilin yanvar ayında başa çatan doqquz bank depozitinə malik olmuşdur.

ABŞ dollarında ifadə olunan beş depozitin sabit faiz dərəcəsi 4.15% - 4.34% arasında təşkil etmişdir. Bu depositlər Fond və Fondun xarici meneceri Clariden tərəfindən yerləşdirilmişdirlər.

Avroda ifadə olunmuş iki depozitin sabit faiz dərəcəsi 2.35% təşkil etmiş və Fond tərəfindən yerləşdirilmişdir.

İngilis Funt Sterlinqində ifadə olunmuş iki depozitin sabit faiz dərəcəsi 4.50 - 4.55% arasında təşkil etmiş və Fond tərəfindən yerləşdirilmişdir.

31 dekabr 2004-cü il tarixinə Fond Avropa banklarında sabit faiz dərəcəsi 2.24% - 2.35% arasında altı bank depozitinə malik olmuşdur. Bu depozitlərin müddəti 2005-ci ilin yanvar ayında başa çatmışdır. Bank depozitləri A-dan AA-ya qədər ( Standard & Poors, Fitch) dəyişən kredit reytinqlərinə malik olan müxtəlif banklarda yerləşdirilmişdir.

*Pul bazarı fondları*

Pul bazarı fondlarına yerləşdirilmiş investisiyalar bu fondlarda tələb əsasında ödənilən səhmlərdən ibarətdir. Pul bazarı fondlarına investisiya edilmiş vəsaitlər tez bir zamanda pula çevrilə bilər. Pul bazarı fondları öz vəsaitlərini kommersiya qiymətli kağızlarda, depozit sertifikatlarda, faiz dərəcələri dəyişkən olan istiqrazlarda, ABŞ xəzinədarlıq istiqrazlarında, Avrobondlarda və ya aktivlərlə zəmanət verilmiş qiymətli kağızlar kimi qısamüddətli borc və borcla bağlı alətlərdə yerləşdirir. Fonda ödənilməli faiz və dividendlər yenidən investisiya edilir.

31 Dekabr tarixinə Fond tərəfindən hər biri AAA kredit reytinqinə malik olan aşağıdakı altı pul bazarı fondlarına investisiya edilmişdir:

| | 2005 | 2004 |
|---|---|---|
| Barclays Global Investors Funds plc | **527 210** | 582 |
| HSBC Global Liquidity Funds Plc | **367 193** | 279 660 |
| JPMorgan Fleming Liquidity Funds | **287 165** | 210 729 |
| Royal Bank of Scotland, Global Treasury Funds plc | **144 435** | 80 369 |
| DWS Portfolio USD Liquidity Fund | **23 728** | – |
| Deutsche Global Liquidity Managed Fund | **12 109** | 146 579 |
| | **1 361 840** | **717 919** |

*Bank hesabları*

31 dekabr tarixinə bank hesabları aşağıdakı valyutalarda ifadə edilmişdir:

| | 2005 | 2004 |
|---|---|---|
| AZM | **67 137** | 1 325 |
| ABŞ dolları | **10 799** | 146 609 |
| Avro | **889** | 2 867 |
| İngilis funt sterlinqi | **513** | 134 |
| Digər | **139** | 169 |
| | **79 477** | **151 104** |

Fondun AZM hesabları Azərbaycan Respublikası Milli Bankı və Azərbaycan Beynəlxalq Bankında mövcuddur. Xarici valyutada ifadə olunan digər hesablar A, AA- və AA arasında ( Standard & Poor's) dəyişən uzunmüddətli reytinqlərinə malik tanınmış xarici banklarda açılmışdır.

**4. Fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə heablanmış qiymətli kağızlar**

31 dekabr tarixinə fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə heablanmış qiymətli kağızları aşağıdakılardan ibarət olmuşdur:

| | 2005 | 2004 |
|---|---|---|
| Maliyyə təşkilatlarının qiymətli kağızları | **1 512 769** | 1 610 971 |
| Agentliklərinin qiymətli kağızları | **820 814** | 322 940 |
| Xarici dövlətlərin qiymətli kağızları | **167 392** | 315 711 |
| Korporativ kapital qiymətli kağızları | **19 303** | 18 286 |
| Korporativ borc qiymətli kağızları | **–** | 66 543 |
| Beynəlmiləl təşkilat istiqrazları | **–** | 12 174 |
| | **2 520 278** | **2 346 625** |

31 dekabr 2005-ci və 2004-cü il tarixlərinə Fond özü və xarici meneceri, Deutsche Bank tərəfindən idarə olunan və State Street Korporasiya kastodial bankının hesabında saxlanılan fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə heablanmış qiymətli kağızlar və digər xarici menecer, Clariden tərəfindən idarə olunan və Claridenin kastodial hesabında saxlanılan fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə heablanmış qiymətli kağızlara malik olmuşdur.

31 dekabr 2005-ci və 2004-cü il tarixli qiymətli kağızlar və ya qiymətli kağızları buraxan maliyyə institutları ən azı Baa3 (Moody's) və ya BBB- (Standard & Poor's) uzunmüddətli kredit reytinqlərinə malik olmuşdur.

*Maliyyə təşkilatlarının qiymətli kağızları*

31 dekabr 2005-ci il tarixinə maliyyə təşkilatlarının qiymətli kağızları müxtəlif Avropa, Asiya və Amerikanın maliyyə təşkilatları tərəfindən buraxılmış, borc qiymətli kağızlarına sərmayələrlə təmsil olunmuşdur. Qiymətli kağızlar 2.25% - 7.5% arasında sabit faiz dərəcəsi, 3 və 6 aylıq ABŞ dolları və Avro LİBORları üstəgəl 0.05% - 2% arasında LİBOR-la bağlı dəyişkən faiz dərəcələrinə və 2006-cı ilin mart ayından 2015-ci ilin iyul ayına qədər başa çatma müddətinə malikdirlər. Bu qiymətli kağızlar birbaşa Fond və Fondun xarici menecerləri tərəfindən idarə olunan portfeldə saxlanılmışdır.

31 dekabr 2004-cü il tarixinə maliyyə təşkilatlarının qiymətli kağızları müxtəlif Avropa, Avstraliya, Şimali və Latın Amerikanın maliyyə təşkilatları tərəfindən buraxılmış borc qiymətli kağızlarına sərmayələrlə təmsil olunmuşdur. Qiymətli kağızlar 2.25% - 8.0% arasında sabit faiz dərəcəsi, 3 və 6 aylıq ABŞ dolları və Avro LİBORları üstəgəl 0.05% - 2% arasında LİBOR-la bağlı dəyişkən faiz dərəcələrinə və 2005-ci ilin dekabr ayından 2014-cü ilin iyul ayına qədər başa çatma müddətinə malikdirlər

*Agentliklərin qiymətli kağızları*

31 dekabr 2005-ci il tarixinə agentliklərə qoyulan investisiyalar ABŞ agentliklərindən Fannie Mae, Freddie Mac, Federal Home Loan Bank, Federal Farm Credit Bank və digər ölkələrin agentlikləri tərəfindən buraxılmış, 1.75% - 6.20% arasında sabit faiz dərəcəsi və 2006-cı ilin mart ayından 2013-cü ilin mart ayına qədər başa çatma müddətinə malik qiymətli kağızlarından ibarət olmuşdur. Bu qiymətli kağızlar Fond və Fondun xarici meneceri olan Clariden tərəfindən idarə olunan portfeldə saxlanılmışdırlar.

31 dekabr 2004-cü il tarixinə agentliklərə qoyulan investisiyalar ABŞ agentliklərindən Fannie Mae, Freddie Mac,Federal Home Loan Bank tərəfindən buraxılmış, 1.75% - 4.625% arasında sabit faiz dərəcəsi və 2005-ci ilin dekabr ayından 2013-cü ilin may ayına qədər başa çatma müddətinə malik qiymətli kağızlarından ibarət olmuşdur.





*Xarici dövlətlərin qiymətli kağızları*

31 dekabr 2005-ci il tarixinə xarici dövlətlərin qiymətli kağızları Şərqi Avropa, Asiya, Afrika və Cənubi Amerika tərəfindən buraxılmış, 3% - 10% arasında sabit faiz dərəcəsinə və 3 və 6 aylıq ABŞ dolları LİBOR üstəgəl 0.03% - 0.8125% arasında LİBOR-la bağlı dəyişkən faiz dərəcələrinə və 2006-cı ilin may ayından 2010-cu ilin iyul ayına qədər başa çatma müddətinə malik istiqrazlarla ifadə olunmuşdur. Bu qiymətli kağızlar birbaşa Fond və Fondun xarici menecerlərindən olan Deutsche Bank tərəfindən idarə olunan portfeldə saxlanılmışdırlar.

31 dekabr 2004-cü il tarixinə xarici dövlətlərin qiymətli kağızları ABŞ xəzinədarlıq istiqrazlarla həmçinin Şərqi Avropa və Asiya dövlətləri tərəfindən buraxılmış, 1.75% - 8.75% arasında sabit faiz dərəcəsinə və 3 və 6 aylıq ABŞ dolları LİBOR üstəgəl 0.5% - 1.75% arasında LİBOR-la bağlı dəyişkən faiz dərəcələrinə və 2005-ci ilin may ayından 2011-ci ilin aprel ayına qədər başa çatma müddətinə malik istiqrazlarla ifadə olunmuşdur. Xarici dövlərlərin qiymətli kağızları Fond və Fondun xarici meneceri olan Deutsche Bank tərəfindən idarə olunan portfeldə saxlanılmışdırlar.

*Korporativ kapital qiymətli kağızları*

31 dekabr 2005-ci il tarixinə korporativ kapital qiymətli kağızlarının balans dəyəri aşağıdakılardan ibarət olmuşdur:

| | 2005 | 2004 |
|---|---|---|
| İstehlak sahələri | **3 510** | 4 246 |
| Energetika | **3 493** | 3 028 |
| Telekomunikasiya və informasiya texnologiyaları | **2 540** | 2 356 |
| Sənaye | **1 938** | 3 121 |
| Kommunal sahələri | **1 523** | 2 108 |
| Səhiyyə | **1 294** | 2 429 |
| Digər | **5 005** | 998 |
| | **19 303** | **18 286** |

Korporativ kapital qiymətli kağızları Fondun xarici menecer Clariden tərəfindən əldə olunmuşdur və idarə edilmişdir.

*Korporativ borc qiymətli kağızları*

31 dekabr 2004-cü il tarixinə korporativ qiymətli kağızlar Brystol-Myers Squibb Company və Eli Lilly & Co tərəfindən buraxılmış, müvafiq olaraq 4.75% və 2.41% faiz dərəcəsinə və 2006-cı ilin oktyabr və dekabr ayına qədər başa çatma müddətinə malik olan qiymətli kağızlardan ibarətdir.

*Beynəlmiləl təşkilat istiqrazları*

31 dekabr 2004-cü il tarixinə beynəlmiləl təşkilat istiqrazları Avropa İnvestisiya Bankı və Asiya İnkişaf Bankı tərəfindən buraxılmış, müvafiq olaraq 2.35% və 2.375% faiz dərəcəsinə, 2006-cı ilin aprel ayına və mart ayına qədər başa çatma müddətinə malik olan istiqrazlardan ibarətdir..

**5. Aktivlərin idarə edilməsi haqqında sazişlər**

31 dekabr 2005-ci il tarixinə Fond tərəfindən tanınmış beynəlxalq maliyyə qurumlarında investisiyaların idarə edilməsi haqqında sazişlər əsasında 545,759 AZM ( 31 dekabr 2004-cü il tarixinə - 563,739 AZM ) saxlayırdı. Fond tərəfindən 2005-ci və 2004-cü il ərzində bu qurumlara, müvafiq olaraq, 1,364 AZM və 1,488 AZM məbləğində idarətmə haqqları ödənilmişdir.

## 6. Əsas vəsaitlər

31 dekabr 2005-ci və 2004-cü il tarixlərində başa çatan illər üzrə əsas vəsaitlər üzrə fəaliyyətin təhlili aşağıdakı cədvəldə göstərilir:

| | Nəqliyyat vasitələri | Ofis avadanlığı | Mebel | Bina | Digər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Balans/qiymətləndirmə** | | | | | | |
| 31 dekabr 2004-cü il | 226 | 1 146 | 539 | 10 182 | – | 12 093 |
| Əlavələr | 4 | 7 | 12 | 54 | 15 | 92 |
| **31 dekabr 2005-ci il** | **230** | **1 153** | **551** | **10 236** | **15** | **12 185** |
| **Yığılmış köhnəlmə** | | | | | | |
| 31 dekabr 2004-cü il | (115) | (472) | (135) | (736) | – | (1 458) |
| Köhnəlmə xərci | (33) | (310) | (119) | (188) | (4) | (654) |
| **31 dekabr 2005-ci il** | **(148)** | **(782)** | **(254)** | **(924)** | **(4)** | **(2 112)** |
| **Xalis qalıq dəyəri:** | | | | | | |
| **31 dekabr 2005-ci il** | **82** | **371** | **297** | **9 312** | **11** | **10 073** |
| 31 dekabr 2004-cü il | 111 | 674 | 404 | 9 446 | – | 10 635 |

Nazirlər Kabinetinin 27 may 2002-ci il tarixli 99 saylı Sərəncamına əsasən Fonda Dövlət tərəfindən inzibati bina verilmişdir. 3 sentyabr 2004-cü il tarixində bina müstəqil qiymətləndirici şirkət tərəfindən yenidən qiymətləndirilmişdir. Buna müvafiq olaraq, 31 dekabr 2005-ci il tarixində bina 10,182 AZM məbləğindən 54 AZM kapitallaşdırılmış xərclər daxil olmaqla və 924 AZM yığılmış köhnəlməni çıxmaqla yenidən qiymətləndirilmiş dəyərlə əks etdirilmişdir.

## 7. Mənfəət vergisi

Mənfəət vergisi xərci 2005-ci və 2004-cü illər üçün 24% əsasında hesablanmışdır.
31 dekabrda başa çatan il üzrə mənfəət vergisi xərcinin tərkibi aşağıdakı kimidir:

| | 2005 | 2004 |
|---|---|---|
| Cari mənfəət vergisi: | | |
| Cari mənfəət vergisi xərci | – | 23 082 |
| Təxirə salınmış mənfəət vergisi: | | |
| Müvəqqəti fərqlərin yaranmasına və silinməsinə aid olan | **(2 972)** | (9 160) |
| Yığılmış zərərlər | **(73 305)** | – |
| Müddəti uzadılmış vergi aktivi üçün qiymətləndirmə ehtiyatı | **76 277** | 9 160 |
| Maliyyə nəticələri haqqında hesabatda qeyd olunan mənfəət vergisi | – | 23 082 |

31 dekabrda başa çatan il üzrə vergi xərcinin qanunla müəyyən edilmiş vergi dərəcəsinə vurulmuş mənfəət vergisindən əvvəl mühasibatlıq uçotunun nəticəsinin məhsulu ilə üzləşməsi aşağıdakı kimidir:

| | 2005 | 2004 |
|---|---|---|
| Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətindən mənfəət | – | 58 010 |
| Qanunla müəyyən edilmiş 24% dərəcəsində vergi | – | 13 922 |
| Ötürülən xalis əməliyyat zərərindən yaranan təxirə salınmış gəlir | **(76 277)** | – |
| Qiymətləndirilmə ehtiyatı | **76 277** | 9 160 |
| Maliyyə nəticələri haqqında hesabatda qeyd olunan mənfəət vergisi xərci | – | 23 082 |





Fondun rəhbərliyi təxirə salınmış vergi aktivlərdən istifadə etmək üçün kifayət qədər vergi tutulacaq mənfəət olmadığına inandığına görə Fond təxirə salınmış vergi aktivinin tam məbləği üzrə qiymətləndirilmə ehtiyatı yaranmışdır.
31 dekabr tarixinə salınmış vergi aşağıdakılardan ibarət olmuşdur:

| | Maliyyə vəziyyəti haqqında hesabat 2005 | Maliyyə vəziyyəti haqqında hesabat 2004 | Maliyyə nəticələri haqqında hesabat 2005 |
|---|---|---|---|
| *Müddəti uzadılmış vergi aktivləri* | | | |
| Qiymətli kağızların qiymətləndirilməsindən müvəqqəti fərq | **2 972** | – | **2 972** |
| Yığılmış zərər | **73 305** | – | **73 305** |
| Cəmi təxirə salınmış vergi aktivləri | **76 277** | – | – |
| Təxirə salınmış vergi aktivləri | – | – | **76 277** |
| **Qiymətləndirmə ehtiyatından əvvəl xalis təxirə salınmış vergi aktivi** | **76 277** | – | |
| Qiymətləndirmə ehtiyatı | **(76 277)** | – | **(76 277)** |
| **Xalis təxirə salınmış vergi aktivi** | – | – | – |

## 8. Daxil olmuş vəsaitlər

31 dekabr 2005-ci və 2004-cü il tarixlərində başa çatan illər üzrə daxilolmalar aşağıdakı kimi olmuşdur:

| | Mənfəət neftinin satışından alınan xalis gəlir | Maliyyə Nazirliyindən daxilolmalar | Boru kəməri tranzit tarifləri | Akrhesabı ödənişlər | Bonuslar | Yenidən qiymətləndirmə ehtiyatı | Digər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **2005-ci ildə daxilolmalar** | **2 713 095** | **316 472** | **72 123** | **40 756** | **4 592** | – | **7 017** | **3 154 055** |
| **2004-cü ildə daxilolmalar** | 1 294 834 | – | 67 018 | 43 261 | 105 991 | 7 830 | 3 707 | 1 522 641 |

2005-ci ildə "2005-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 21 iyun 2005-ci il tarixli Qanunu ilə Dövlət xəzinədarlığından Dövlət Neft Fonduna 316,474 AZM məbləğində vəsait köçürülmüş. Bu vəsait ixrac olunan neftin satış qiyməti ilə büdcə hesablamaları üçün nəzərdə tutulan qiymət arasında fərq hesabına dövlət büdcəsinə daxil olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli "Bakı-Tbilsi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının payına düşən mənfəət neftinin bir hissəsi (1,196 min barrel) 2005-ci ildə kəmərin doldurulmasına istifadə olunmuşdur və buna görə xalis aktivlərdə dəyişikliklər haqqında hesabatda öz əksini tapmamışdır.

**9. Fond tərəfindən edilən köçürmələr**

*Dövlət Büdcəsinə köçürmələr*

2005-ci ildə, əvvəlki illərdə olduğu kimi, Dövlət Neft Fondunun vəsaitinin müəyyən hissəsi dövlət büdcəsinə köçürülmüşdür. Azərbaycan Respublikasının "2005-ci il Dövlət büdcəsi haqqında" 789-IIQ nömrəli 3 dekabr 2004-cü il tarixli Qanununa və Azərbaycan Respublikası Prezidentinin "Dövlət Neft Fondunun 2005-ci il büdcəsi barədə" 01 mart 2005-ci il tarixli 201 nömrəli Fərmanına, habelə "Dövlət Neft Fondunun 2005-ci il büdcəsinin icrası ilə bağlı bəzi tədbirlər haqqında" 01 mart 2005-ci il 652 nömrəli Sərəncamı ilə təsdiq edilmiş 2005-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitlərinin xərc istiqamətlərinə (proqramına) uyğun olaraq 2005-ci ildə Fond tərəfindən dövlət büdcəsinə 750,000 AZM vəsait köçürülmüşdür (2004-cü ildə 650,000 AZM).

*AzBTC şirkəti üçün Dövlət Xəzinədarlığına köçürmələr*

Dövlət Neft Fondunun 2005-ci il üçün büdcəsinin icrası çərçivəsində, habelə Azərbaycan Respublikası Prezidentinin 30 iyul 2002-ci il tarixli 739 ğ-li "Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında" Fərmanına, Azərbaycan Respublikası Prezidentinin "Dövlət Neft Fondunun 2005-ci il büdcəsi barədə" 01 mart 2005-ci il tarixli 201 nömrəli Fərmanına, "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2005-ci il büdcəsində dəyişikliklərin edilməsi haqqında" 28 dekabr 2005-ci il tarixli 347 nömrəli Fərmana uyğun olaraq 205,000 AZM (2004-cü ildə 89,000 AZM) , Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının (bu iştirak payının maliyyələşdirilməsi dolayı yol ilə həyata keçirilir - AzBTC şirkətində İqdisadi İnkişaf Nazirliyinin 70%-lik iştirak payının maliyyələşdirməklə. AzBTC şirkəti BTC boru kəməri şirkətində 25% iştirak payına malikdir) maliyyələşdirilməsinə yönəldilmişdir. Bu layihənin maliyyələşdirilməsi Dövlət Neft Fondu tərəfindən 2002-ci ilin oktyabr ayından etibarən həyata keçirilir.

*Dövlət Qacqınlar Komitəsinə və Məcburi köçkünlərin Sosial İnkişaf Fonduna köçürmələr*

2005-ci ildə qaçqınların və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması tədbirlərinin məliyyələşdirilməsinə 201,948 AZM (2004-cü ildə 51,952 AZM) vəsait köçürülmüşdür.

Qeyd olunan layihələrin maliyyələşdirilməsi üçün ayrılan vəsaitlər Fond tərəfindən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, habelə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun müvafiq qaydada əsaslandırılmış sifarişləri əsasında adı çəkilən qurumların Dövlət Xəzinədarlığındakı hesablarına köçürülmüş və sonra sifarişçi təşkilatlar vasitəsi ilə podratçı təşkilatlara ödənilmişdir.

**10. Riskin idarə edilməsi siyasəti**

Riskin idarə edilməsi Fondun fəaliyyətinin vacib elementidir. Kredit riskləri və faiz dərəcələrinin və xarici valyuta məzənnələrinin bazarda dəyişməsi riskləri Fondun əməliyyatlarına məxsus olan risklərdir. Fondun riskin idarə olunması prinsiplərinin göstərilmiş risklərlə əlaqədar yekun təsviri aşağıda verilir.

*Kredit riski*

Fond özünün nağd vəsaitləri və onların ekvivalentləri və investisiyaları ilə bağlı kredit riskinə məruz qala bilər. Kredit riskləri Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş və 21 dekabr 2001-ci il tarixli 607 nömrəli Fərmanı, 01 mart 2005-ci il tarixli 202 nömrəli Fərmanı, 01 mart 2005-ci il tarixli 652 nömrəli Sərəncamı ilə əlavə və dəyişikliklər edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında" Qaydalara müvafiq olaraq idarə olunur. Bir maliyə qurumunun və ya bir investisiya aktivinin investisiya portfelindəki maksimal xüsusi çəkisi investisiya portfelinin məcmu dəyərinin 15%-i həddində müəyyən edilmişdir.

*Bank hesabları*

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş və 21 dekabr 2001-ci il tarixli 607 nömrəli Fərmanı, 01 mart 2005-ci il tarixli 202 nömrəli Fərmanı ilə əlavə və dəyişikliklər edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında" Qaydalara uyğun olaraq Fondun valyuta hesabları üzrə hesablaşma hesabları uzunmüddətli öhdəliklər üzrə kredit reytinqi A- (Standard & Poor's, Fitch) və ya A3 (Moody's) kredit reytinq dərəcəsindən aşağı olmayan banklarda açıla bilər.

31 dekabr 2005-ci il və 31 dekabr 2004-cü il tarixlərində, müvafiq olaraq, 67,364 AZM və 4,471 AZM məbləğlərində vəsait Azərbaycan Respublikası Milli Bankında və Azərbaycan Respublikası Beynəlxalq Bankında saxlanılmışdır.

*Maliyyə bazarlarında tərəf müqabili*

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş və 21 dekabr 2001-ci il tarixli 607 nömrəli Fərmanı, 01 mart 2005-ci il tarixli 202 nömrəli Fərmanı ilə əlavə və dəyişikliklər edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında" Qaydalara uyğun olaraq Fondun bəynəlxalq maliyyə bazarlarında tərəf müqabili uzunmüddətli öhdəliklər üzrə investisiya dərəcəli kredit reytinqindən (Baa3 (Moody's) və ya BBB- (Standard & Poor's, Fitch və ya Moody's)) aşağı olmayan reytinqə malik olan kommersiya bankları və digər maliyyə təsisatları ola bilər.

*Qiymətli kağızlar üzrə depozitar xidmətlər*

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş və 21 dekabr 2001-ci il tarixli 607 nömrəli Fərmanı, 01 mart 2005-ci il tarixli 202 nömrəli Fərmanı ilə əlavə və dəyişikliklər edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında" Qaydalara uyğun olaraq Fondun qiymətli kağızlar üzrə depozitar xidmətləri uzunmüddətli öhdəliklər üzrə kredit reytinqi A- (Standard & Poor's, Fitch) və ya A3 (Moody's) kredit reytinqi dərəcəsindən aşağı olmayan kommersiya bankları və ya digər maliyyə təsisatları tərəfindən göstərilə bilər

*Xarici menecerlər*

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş və 21 dekabr 2001-ci il tarixli 607 nömrəli Fərmanı, 01 mart 2005-ci il tarixli 202 nömrəli Fərmanı ilə əlavə və dəyişikliklər edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında" Qaydalara uyğun olaraq Fondun valyuta vəsaitinin idarə edilməsinə xarici menecer cəlb edildikdə xarici menecerin özünün və ya onun əsas təsisçisinin kredit reytinqi investisiya dərəcəli kredit reytinqindən (Baa3 (Moody's) və ya BBB- (Standard & Poor's, Fitch)-dən aşağı olmayan) aşağı olmamalı, və ya onun aktivlərinin idarə edilməsində beş ildən az olmayan müsbət təcrübəsi, və yaxud dəyəri 1 milyard ABŞ dolları məbləğindən az olmayan aktivlərin idarə edilməsində səriştəsi olmalıdır.

*Xarica valyuta riski*

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 01 mart tarixli 652 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Dövlət Neft Fondunun 2005-ci il üçün İnvestisiya Siyasəti (investisiya istiqamətləri) ilə Neft Fondunun investisiya portfelinin valyuta tərkibi (səbəti) üçün tələblər müəyyən edilmişdir. Bu tələblərə uyğun olaraq 2005-ci ildə Neft Fondunun investisiya portfelinin məcmu dəyərinin 55%-i ABŞ dollarında ifadə olunan aktivlərə, 35%-i Avro-da ifadə olunan aktivlərə, 5%-i İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə, Fondun investisiya portfelinin məcmu dəyərinin 5%-i isə A (Standart and Purz, Fiç) və ya A2 (Mudiz) kredit reytinqindən aşağı olmayan uzunmüddətli ölkə (suveren borc) reytinqinə malik olan ölkələrin valyutalarında, və ya ABŞ dollarında və xüsusi çəkidəki mütənasiblik əsasında bölüşdürülərək ABŞ dolları, Avro və İngiltərə funt sterlinqində ifadə olunan aktivlərə yerləşdirilməsi müəyyən edilmişdir. 2004-cü ildə Fond özünün diversifikasiya meyarına cavab verməyib və 2005-ci ildə bu meyardan cüzi kənarlaşma olmuşdur . Belə ki, 31 dekabr 2005-ci ilə Fondun investisiya portfelinin 53.4%-i ABŞ dollarında ifadə olunan aktivlərdə, (31 dekabr 2004-cü ildə - 99%), 41%- Avroda (31 dekabr 2004-cü ildə - 1%) və 5.6% Böyük Britaniya funt sterlinqində (31 dekabr 2004-cü ildə - sıfır) yerləşdiyi müəyyən edilmişdir.

Fondun funksional və hesabat valyutası AZM-dir. Yuxarıda qeyd edildiyi kimi Fondun İnvestisiya Siyasətinə uyğun olaraq Fondun investisiya portfeli ABŞ Dolları, Avro, İngiltərə funt sterlinqində və




illik hesabat 2005

digər xarici valyutalarda ifadə olunmalıdır. 2005-ci və 2004-cü illərdə AZM-ın bu valyutalara qarşı möhkəmlənməsinə görə 31 dekabr 2005-ci və 2004-cü il tarixlərində başa çatan illər üzrə, müvafiq olaraq, 443,492 AZM və 13,258 AZM miqdarında qaçılmaz məzənnə fərqi zərərinə məruz qalmışdır. Bu zərər maliyyə nəticələri haqqında hesabatda əks olunmuşdur.

*Faiz dərəcəsi riski*

31 dekabr 2005 və 2004-cü il tarixlərinə bütün depozitlər və borc qiymətli kağızlar faizli olduğu üçün faiz dərəcəsi riskinə məruz qalırdı. Fond depozitlərlə bağlı olan faiz dərəcəsi riskini bir ay ərzində müddəti bitən qısamüddətli depozitlərə investisiya qoymaqla tənzimləyir. Qiymətli kağızlar üzrə dəyişkən faiz bir ildən az olan intervallarla yenidən qiymətləndirilir. Fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə hesablanmış qiymətli kağızlar üzrə müəyyən edilmiş faiz maliyyə alətlərinin müddətinin sonuna qədər dəyişmir. 31 dekabr 2005 və 2004-cü il tarixlərinə qiymətli kağızların əksəriyyəti borc qiymətli kağızları ilə təmsil edildiyi üçün, Fondun faiz dərəcəsi riskinə məruz qalması ehtimalı yüksəkdir. Fond bu riski fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə heablanmış qiymətli kağızlar portfelində dəyişkən faiz dərəcəsi ilə saxlanılan qiymətli kağızların həcmini tədricən artırmaqla idarə edir.

*Likvidlik riski*

Fondun rəhbərliyi hesab edir ki, cari və gələcək əməliyyatların tələbatını ödəmək üçün Fond kifayət qədər resurslara malikdir. Fondun siyasəti hər bir şəraitdə Fondun öhdəliklərini ödəmək üçün likvidliyin lazım olan səviyyədə saxlanılmasından ibarətdir.

Fondun aktivlərinin və öhdəliklərinin coğrafi cəmləşməsi aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| | 2004 | | | | | | 2003 | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Azərbaycan | Avropa | ABŞ | Asiya | Digərlər | Cəmi | Azərbaycan | Avropa | ABŞ | Asiya | Digərlər | Cəmi |
| **Aktivlər:** | | | | | | | | | | | | |
| Nağd vəsaitlər və onların ekvivalentləri | 67 639 | 3 759 018 | 10 551 | – | – | 3 837 208 | 4 718 | 2 353 307 | 2 226 | – | – | 2 360 251 |
| Fərqi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə hesablanmış qiymətli kağızlar | – | 1 117 959 | 829 307 | 522 911 | 50 101 | 2 520 278 | – | 1 010 005 | 294 271 | 895 259 | 147 090 | 2 346 625 |
| Alınmalı faizlər | – | 23 395 | 16 181 | 6 198 | 619 | 46 393 | – | 7 997 | 695 | 8 539 | 2 974 | 20 205 |
| Fonda daxil olmalı vəsaitlər | 6 397 | – | – | – | – | 6 397 | 12 492 | – | – | – | – | 12 492 |
| Digər qısamüddətli investisiyalar | 1 518 | 1 907 | – | – | – | 3 425 | – | – | – | – | – | 0 |
| Digər cari aktivlər | 5 | – | – | – | – | 5 | 15 | – | – | – | – | 15 |
| | **75 559** | **4 902 279** | **856 039** | **529 109** | **50 720** | **3 413 706** | **17 225** | **3 371 309** | **297 192** | **903 798** | **150 064** | **4 739 588** |
| Əsas vəsaitlər, xalis | 10 073 | – | – | – | – | 10 073 | 10 635 | – | – | – | – | 10 635 |
| Qeyri-maddi aktivlər | 351 | – | – | – | – | 351 | 199 | – | – | – | – | 199 |
| Digər aktivlər | 532 | – | – | – | – | 532 | 964 | – | – | – | – | 964 |
| | **10 956** | **–** | **–** | **–** | **–** | **10 956** | **11 798** | **–** | **–** | **–** | **–** | **11 798** |
| | **86 515** | **4 902 279** | **856 039** | **529 109** | **50 720** | **6 424 662** | **29 023** | **3 371 309** | **297 192** | **903 798** | **150 064** | **4 751 386** |
| **Öhdəliklər:** | | | | | | | | | | | | |
| Dövlət Büdcəsinə ödəniləcək məbləğlər | – | – | – | – | – | – | 15 832 | – | – | – | – | 15 832 |
| Digər cari öhdəliklər | 234 | 1 356 | – | – | – | 1 590 | 222 | 590 | – | – | – | 812 |
| | **234** | **1 356** | **–** | **–** | **–** | **1 590** | **16 054** | **590** | **–** | **–** | **–** | **16 644** |
| **Xalis maliyyə vəziyyəti** | **86 281** | **4 900 923** | **856 039** | **529 109** | **50 720** | **6 423 072** | **12 969** | **3 370 719** | **297 192** | **903 798** | **150 064** | **4 734 742** |





Fondun xarici valyuta məzənnəsinin dəyişməsi riski aşağıdakı cədvəldə göstərilir:

| | 2005 | | | 2004 | | |
|---|---|---|---|---|---|---|
| | AZM | Sərbəst dönərli | Cəmi | AZM | Sərbəst dönərli | Cəmi |
| **Aktivlər:** | | | | | | |
| Nağd vəsaitlər və onların ekvivalentləri | 67 137 | 3 770 071 | 3 837 208 | 1 324 | 2 358 927 | 2 360 251 |
| Fərdi gəlirlər və ya xərclərdə əks olunan real bazar dəyəri ilə hesablanmış qiymətli kağızlar | – | 2 520 278 | 2 520 278 | – | 2 346 625 | 2 346 625 |
| Alınmalı faizlər | – | 46 393 | 46 393 | – | 20 205 | 20 205 |
| Fonda daxil olmalı vəsaitlər | – | 6 397 | 6 397 | – | 12 492 | 12 492 |
| Avans ödənişləri və digər cari aktivlər | 1 566 | 1 859 | 3 425 | – | – | – |
| Digər cari aktivlər | 5 | – | 5 | 15 | – | 15 |
| | **68 708** | **6 344 998** | **6 413 706** | **1 339** | **4 738 249** | **4 739 588** |
| Əsas vəsaitlər, xalis | 10 073 | – | 10 073 | 10 635 | – | 10 635 |
| Qeyri-maddi aktivlər | 351 | – | 351 | 199 | – | 199 |
| Digər aktivlər | 532 | – | 532 | – | 964 | 964 |
| | **10 956** | **–** | **10 956** | **10 834** | **964** | **11 798** |
| | **79 664** | **6 344 998** | **6 424 662** | **12 173** | **4 739 213** | **4 751 386** |
| **Öhdəliklər:** | | | | | | |
| Dövlət büdcəsinə ödəniləcək məbləğlər | – | – | – | 15 832 | – | 15 832 |
| Digər cari öhdəliklər | 230 | 1 360 | 1 590 | – | 812 | 812 |
| | **230** | **1 360** | **1 590** | **15 832** | **812** | **16 644** |
| **Xalis maliyyə vəziyyəti** | **79 434** | **6 343 638** | **6 423 072** | **(3 659)** | **4 738 401** | **4 734 742** |

Yuxarıdakı cədvəldə sərbəst dönərli valyutalar ABŞ dolları, İngiltərə Funt Sterlinqi, Avro və digər valyutalarda əks etdirilir.

## 11. Əlaqəli tərəflər

31 dekabr tarixinə əlaqəli tərəflərlə razılaşma aşağıdakılardan ibarətdir:

| Əlaqəli tərəf | | Əlaqəli tərəflərdən daxilolmalar | Əlaqəli tərəflərə köçürülmələr | Əlaqəli tərəflərə kreditor borcları | Əlaqəli tərəflərdən debetor borcları |
|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası Qaçqınların və məcburi köçkünlər üzrə Dövlət Komitəsi və Sosial İnkişaf Fondu | ***2005*** | **–** | **201 948** | **–** | **–** |
| | 2004 | – | 51 952 | – | – |
| AzBTC Limited | ***2005*** | **–** | **205 000** | **–** | **–** |
| | 2004 | – | 94 615 | – | – |
| Dövlət Büdcəsi | ***2005*** | **–** | **750 000** | **–** | **1 515** |
| | 2004 | – | 650 000 | 15 832 | – |
| ARDNŞ | ***2005*** | **2 713 095** | **–** | **–** | **–** |
| | 2004 | 1 294 807 | – | – | – |

Bütün əlaqəli tərəflərlə əməliyyatlar qeyd 2-də təsfir edilib.

*Əsas rəhbərlik heyəti*

Baş rəhbərlik qrupu Fondun İcraçı Direktoru və müdiriyyətlərin rəhbərlərindən ibarətdir. Əsas rəhbərlik heyəti üzvlərinin məcmu haqqı və bu kateqoriya daxilində haqq alan və tam məşğulluq ekvivalenti əsasında müəyyən edilmiş rəhbərlərin sayı aşağıdakı cədvəldə göstərilir:

| | 2005 | 2004 |
|---|---|---|
| Məcmu haqq | 24 | 10 |
| Şəxslərin sayı | 5 | 5 |

**12. Şərti öhdəliklər**

2004-cü ildə Azərbaycan Respublikası Rabitə Nazirliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Fond da daxil olmaqla Azərbaycan Respublikasının hökumətinə qarşı cəmi təxminən altı milyon ABŞ dolları məbləğində məhkəmə iddiası qaldırılmışdır. Bu məhkəmə iddiasını bir xarici bank Niderlandın Rotterdam Dairə Məhkəməsində qaldırmışdır. Fondun rəhbərliyi hesab edir ki, bu məhkəmə iddiası əsassızdır və Azərbaycan Respublikası üstün gələcəkdir. Bununla bərabər, hazırkı maliyyə hesabatları hazırlandığı tarixə məhkəmə prosesinin nəticəsi hələ müəyyən deyildir. Bu maliyyə hesabatları həmin qeyri-müəyyənliyin mümkün nəticəsindən irəli gələ bilən heç bir ehtiyatları daxil etmir.

**13. Hesabat tarixindən sonra baş verən hadisələr**

01 yanvar 2006-cı il tarixindən etibarən, Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən, Respublikada milli valyutanın (manatın) denominasiyası həyata keçirilmişdir. Yeni manata keçid zamanı 1 yeni manat (AZN) 5,000 köhnə manata (AZM) bərabər tutulmuşdur. Bu Maliyyə Hesabatında yeni manata keçid nəzərə alınmamışdır.

Azərbaycan Respublikasının "2006-cı il Dövlət büdcəsi haqqında" 1026-IIQ nömrəli 21 oktyabr 2005-ci il tarixli qanununa və "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2006-cı il büdcəsi barədə" 28 dekabr 2005-ci il tarixli 346N-li Fərmanına əsasən Fondun 2006-cı il büdcəsinin gəlirləri 807,843 min AZN (4,039,213 AZM), xərcləri 954,288 min AZN (4,771,439 AZM) məbləğində təsdiq edilmişdir. 1026-IIQ nömrəli qanuna görə Fondun büdcəsinin xərclər hissəsində yeni maliyyələşdirmə istiqamətləri yaranmışdır:

- Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi – 90,000 min AZN (450,000 AZM);
- Samur Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi – 37,000 min AZN (185,000 mln AZM);
- Dövlət İnvestisiya Şirkətinin nizamnamə kapitalının formalaşdırılması – 90,000 min AZN (450,000 mln AZM).

2006-cı ilin yanvar ayında BTC layihəsi üzrə 21,721 min AZN (108,605 AZM) ödənmişdir ki, bu da Heydər Əliyev adına BTC Əsas İxrac Boru Kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi ilə bağlı xərclər maddəsinin yerinə yetirilməsinin 57 %-ini təşkil etmişdir.